*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının
Elm və Təhsil Nazirliyinin orqanı

5 may 2023-cü il
№17 (9025)

www.muallim.edu.az
muallim@edu.gov.az

## BU SAYIMIZDA

### "TEKNOFEST-2023"-ün QALİBLƏRİ



27 aprel - 1 may tarixlərində Türkiyə Respublikasının İstanbul şəhərində altıncı ildir təşkil edilən "TEKNOFEST-2023" Aerokosmik və Texnologiya Festivalı keçirilib. Beynəlxalq status daşıyan "TEKNOFEST" Türkiyənin kosmos, aviasiya, texnologiya sahələrində sürətli inkişafının göstəricisi olmaqla dünyada xüsusi marağa səbəb olub.

Aprelin 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirak etdiyi möhtəşəm festival mötəbərliyi ilə yadda qalıb və iki qardaş ölkənin hər zaman birlikdə olmasını bir daha sübut edib.

səh.8

### UFAZ tələbəsinin növbəti uğuru



Azərbaycan-Fransız Universitetinin (UFAZ) "Neft və Qaz mühəndisliyi" ixtisası üzrə təhsil alan 4-cü kurs tələbəsi Gülər İsmayılova AAPG-nin illik tələbə konfransında "Qırmaki pilosen məhsuldar qatı alt çökmə strukturlarının icmalı" tədqiqatı ilə birinci yer üzrə mükafata layiq görülüb. UFAZ-dan bildirilib ki, tədqiqat Pilosen Məhsuldar Seriyasının çıxma məlumatları əsasında aparılır. Cənubi Xəzər hövzəsindəki əsas karbohidrogen anbarının (Abşeron quru və qərbi dəniz hissəsi) əsas analogiyası Balaxanı qəsəbəsinin yaxınlığında, Qırmaki dərəsində yerləşir. Tədqiqat obyekti Qırmaki PPS dəstidir. Tədqiqat 15 və 16 yanvar 2023-cü il tarixlərində aparılıb.

səh.10

### Uşaqlarda ünsiyyət



Ünsiyyət uşaqların ən vacib tələbatlarından biridir. Lap körpəlikdən başlayaraq hər bir yaş dövrünün özünəməxsus ünsiyyət tələbatı olur. Qeyd etmək vacibdir ki, uşaqlarda ünsiyyət tələbatı ilk öncə ailədə qarşılanmalıdır. Onlar valideynləri ilə ünsiyyət zamanı yeni məlumatlar əldə edir, hər hansı problemlərinin həllində yardım ala bilirlər. Bu ünsiyyət uşaqlara inam hissi qazandırır və yenilikləri öyrənməsinə yol açır. Valideynlərin övladları ilə ünsiyyəti, bu ünsiyyətin düzgün qurulması uşaqların sonrakı inkişafı üçün önəmlidir. Bildiyimiz kimi, ünsiyyət nitq vasitəsilə baş verir. Ünsiyyət zamanı dörd nitq bacarığından istifadə olunur: dinləmə, danışma, oxu, yazı.

səh.12

## 2023 – "Heydər Əliyev İli"



## Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir

Mayın 2-də Bakıda, Heydər Əliyev Sarayında Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin toplantısı keçirilib. Toplantı Ümummilli Liderin anadan olmasının 100 illiyinə həsr edilib.

AZƏRTAC xəbər verir ki, Ulu Öndərin hakimiyyət illərində xaricdə təhsil almış həmvətənlərimizin qatıldığı toplantıda dövlət və hökumət nümayəndələri də iştirak ediblər.

Əvvəlcə Sarayın foyesində Ulu Öndərin hakimiyyətinin hər iki dövründə Azərbaycan təhsilinə qayğısından bəhs edən fotosərgi ilə tanışlıq olub.

Toplantı açıq elan edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov çıxış edib.

Bu günlərdə xalqımızın böyük tarixi şəxsiyyəti, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin böyük təntənə ilə qeyd edildiyini bildirən Baş nazir deyib ki, Ulu Öndərin 100-cü ildönümü onun ideya və arzularının gerçəkləşdiyi, tövsiyə və vəsiyyətlərinin yerinə yetirildiyi tarixi şəraitdə keçirilir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamında qeyd edildiyi kimi, davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

⇨Ardı səh.2

## 146 Çağrı Mərkəzinin yeni fəaliyyət istiqaməti

Elm və Təhsil Nazirliyinin 146 Çağrı Mərkəzi yeni istiqamət üzrə vətəndaşların sorğularını cavablandıracaq. Belə ki, Çağrı Mərkəzinin 146 — 9 nömrəli yeni telefon xətti artıq istifadəyə verilib.

Vətəndaşlar Dövlət Proqramı İdarəetmə Qrupu ilə əlaqə yaratmaq üçün müvafiq nömrəyə zəng edə, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" və "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na dair suallarına qısa zaman ərzində cavab ala bilərlər.

# Qubadlı şəhərində tam orta məktəb binasının təməli qoyulub



## Prezident İlham Əliyev təməlqoyma mərasimində iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-4 tarixlərində Ağdam, Laçın, Qubadlı və Cəbrayıl rayonlarına səfəri çərçivəsində bir sıra təhsil müəssisəsinin təməlini qoyub, tikintinin gedişatı ilə tanış olub.

Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq 3-cü yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və xanımına əvvəlcə Ağdam şəhər 1 nömrəli məktəbin yeni binasında tikinti işlərinin gedişi barədə məlumat verildi. Bildirildi ki, 960 şagird yerlik bu məktəbdə təhsil üçün hər cür şərait yaradılacaq.

Qeyd edək ki, bu məktəbin binasının təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Fəaliyyətə 1883-cü ildə başlayan bu təhsil ocağı Qarabağ bölgəsinin ən qədim məktəbidir.

Dövlət başçısı mayın 4-də Qubadlı şəhərində 600 şagird yerlik tam orta məktəb binasının təməlinin qoyulması mərasimində iştirak edib. Dövlətimizin başçısına məktəb binası ilə bağlı məlumat verilib. Bildirilib ki, məktəb Qubadlı şəhəri, Dondarlı kəndi və ona bitişik açıq ərazidə inşa olunacaq. Təhsil ocağı və ona məxsus açıq ərazilər yaşayış sahələri ilə əhatə olunacaq. Məktəbin həyətyanı ərazisindəki idman qurğularından və oyun meydançalarından axşamlar və həftə sonları ictimaiyyət nümayəndələri də istifadə edə biləcəklər.

Qeyd edilib ki, məktəb binası modul tipli sinif otaqlarından istifadə olunmaqla layihələndirilib. Təbii işıqla işıqlandırılmış daxili məkanlar məktəbin enerji tələbatını minimuma endirəcək. Binanın strukturu uyğunlaşan sistemdir və şəhərin böyüməsi ilə bağlı şagird sayı artdıqca genişləndirilə bilər.

Dövlətimizin başçısı məktəb binasının təməlini qoyub.

Bundan əlavə, Prezident İlham Əliyev Laçın rayonunun Güləbird kəndinin təməlqoyma mərasimində də iştirak edib. 581 ailənin məskunlaşması üçün planlaşdırılan kənddə fərdi evlər və digər infrastruktur obyektləri ilə yanaşı, həmçinin 432 şagird yerlik məktəb, 80 yerlik uşaq bağçası tikiləcək.

Ölkə başçısı səfər çərçivəsində Cəbrayıl şəhərində Akademik Mehdi Mehdizadə adına 960 şagird yerlik orta məktəbin binasında tikinti işlərinin gedişi ilə də tanış olub.

# Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir




## Bakıda Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin toplantısı keçirilib




⇦ Əvvəli səh.1

1974-cü ildə Moskva şəhərində Plexanov adına Xalq Təsərrüfatı İnstitutuna daxil olduğunu, 1978-ci ildə həmin İnstitutu bitirdiyini xatırladan Ə.Əsədov deyib: “O illərdə belə nüfuzlu ali məktəblərə qəbul olmaq biz gənclər üçün böyük şərəf idi. Bu istiqamətdə atılan addımların hansı qlobal məqsədə xidmət etdiyi barədə təsəvvürümüz olmasa da, üzərimizə düşən məsuliyyəti - Azərbaycan üçün gərəkli mütəxəssis kimi yetişməyin əhəmiyyətini dərk edir, respublika rəhbərinin xeyir-duasından daha da ruhlanırdıq. İllər sonra Ulu Öndər özü etiraf edirdi ki, bu uzaqgörən strategiyanın məqsədi bir çox ixtisaslar üzrə milli kadrların hazırlanması ilə yanaşı, həm də Azərbaycan gənclərinin dünyagörüşlərinin genişləndirilməsi idi. Bugünkü toplantının iştirakçıları Azərbaycanın ictimai-siyasi həyatının müxtəlif sahələrində fəaliyyət göstərən, Vətənimizin hərtərəfli inkişafına töhfələr verən insanlardır. Hər birimiz böyük həyat yolu keçərək şəxsiyyət kimi formalaşmışıq, müxtəlif peşələrə yiyələnmişik, müxtəlif vəzifələr tutmuşuq. Lakin bizi birləşdirən mühüm bir faktor var - əksəriyyətimiz Ulu Öndərin böyük diqqət və qayğısı nəticəsində Azərbaycandan kənarda ali təhsil almaq şərəfinə nail olmuşuq. Bu gün biz böyük iftixar hissi ilə deyirik ki, Heydər Əliyev məktəbinin məzunları, Heydər Əliyevin kadrlarıyıq”.



Əli Əsədov bildirib ki, Azərbaycanın qədim tarixi və zəngin dövlətçilik ənənələri, bu ənənələri yaradan və yaşadan böyük xalqı, doğma Vətənin tarixinə öz adını əbədi yazdıran qəhrəman övladları, dahi şəxsiyyətləri var. Ancaq Ulu Öndər Heydər Əliyev onların arasında xüsusilə seçilir. Yüz il əvvəl qədim Naxçıvanda sadə, zəhmətkeş ailədə dünyaya göz açan, uşaqlığı əyalət şəhərində keçən Heydər Əliyev iş fəaliyyətinə hələ gənc yaşlarında dövlət qulluğunda başlamışdı. Sonralar onun nəhəng bir ölkənin rəhbərlərindən olması, dünya miqyasında şöhrət qazanaraq öz xalqını şərəfləndirməsi, onun əsl lider kimi çox mürəkkəb və məsuliyyətli missiyanı şərəflə yerinə yetirməsi Ulu Öndərə qismət olan bənzərsiz bir taledir. “Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışıram və çalışacağam”, - Ulu Öndər həyat amalını belə ifadə etmiş və bu amala daim sadiq olmuşdur.

Ulu Öndərin 1972-ci ildən etibarən hər il yüzlərlə azərbaycanlı gənci SSRİ-nin böyük təcrübəyə malik ali hərbi təhsil məktəblərinə oxumağa göndərdiyini xatırladan Əli Əsədov diqqətə çatdırıb ki, o illərdə məhz Ulu Öndərin şəxsi təşəbbüsü ilə böyük çətinliklərlə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradıldı. “Belə təşəbbüslər irəli sürüləndə, milli hərbi kadrların hazırlanmasına xüsusi diqqət yetiriləndə heç kim təsəvvür edə bilməzdi ki, 2020-ci ilin bir payız günündə yüngül silahlarla Şuşanın sıldırım qayalarını aşan Azərbaycan Ordusuna məhz Heydər Əliyevin xeyir-duası ilə hərbi təhsil almış milli kadrlar rəhbərlik edəcək və bu kadrlar onun layiqli varisi, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə xalqımızın Qarabağ və Şuşa həsrətinə son qoyacaq. Ümummilli Liderimizin təməlini qoyduğu, möhkəmləndirdiyi təhsil siyasəti bu gün etibarlı zəmin üzərində inkişaf etdirilir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin böyük səyləri sayəsində elm və təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının mühüm istiqamətlərindən birinə çevrilib”, - deyə Baş nazir vurğulayıb.

Ə.Əsədov qeyd edib ki, “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində 32 ölkənin 350-dən çox ən nüfuzlu ali təhsil müəssisəsində təhsil almaları məqsədilə ümumilikdə 3500-dən artıq gənc xaricə göndərilmiş və onlara təqaüd verilib, bu məqsədlər üçün 200 milyon manat vəsait xərclənib. Prezident İlham Əliyev 2022-ci il 28 fevral tarixli Sərəncamı ilə “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı”nı təsdiq edib. Dövlət Proqramının icrası müddətində hər il 400 nəfər olmaqla, ümumilikdə 2000 nəfərədək vətəndaşın xaricdə nüfuzlu ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində təhsil alması təmin ediləcək.

“Bu gün öz Vətənini, xalqını, dövlətini sevən hər bir Azərbaycan vətəndaşının qəlbində Heydər Əliyev abidəsi ucaldılıb. Nə qədər Azərbaycan xalqı, Azərbaycan dövləti var, Heydər Əliyev də yaşayacaq. Bu gün Azərbaycan Prezidentinin ətrafında sıx birləşmiş xalqımız əmindir ki, əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan müstəqil dövlətimizin inkişafı etibarlı əllərdədir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun otuz ilə yaxın Ermənistanın işğalı altında olan torpaqları azad etməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması müstəqil dövlətçilik tariximizin ən şərəfli səhifəsidir”, - deyə Baş nazir vurğulayıb.



Sonra Ulu Öndərin Azərbaycan təhsilinə diqqət və qayğısından bəhs edən “Təhsil millətin gələcəyidir” filmi nümayiş olunub.

Toplantı digər çıxışlarla davam edib.

Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər İctimai Birliyinin sədri Natiq Əhmədov, ABŞ-ın Kolumbiya Universitetinin 2012-ci il məzunu, elm və təhsil naziri Emin Əmrullayev, Moskva Dövlət Universitetinin 1975-ci il məzunu, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, Moskva Dövlət Universitetinin 1980-ci il məzunu, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Moskva Dövlət Universitetinin 1973-cü il məzunu, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının baş katibi Asəf Hacıyev, Leninqrad Dövlət Universitetinin 1986-cı il məzunu, Milli Məclisin komitə sədri Səməd Seyidov, Moskva Dövlət Universitetinin 1975-ci il məzunu, Almaniyanın Münxen şəhərində “Holmholtz” Elmi-Tədqiqat Mərkəzində “Dinamik sistemlər” şöbəsinin müdiri, Əməkdar elm xadimi Məsud Əfəndiyev bildiriblər ki, Heydər Əliyev iki ictimai-siyasi quruluşda Azərbaycana uğurla rəhbərlik edib. Hər iki sistemdə Azərbaycanın iqtisadiyyatını möhkəmləndirib, onun şöhrətini, nüfuzunu yüksəklərə qaldırıb, milli mənafeyini, milli mentalitetini, mədəni və mənəvi dəyərlərini qoruyub.

Qeyd olunub ki, hələ sovet hakimiyyəti illərində Ulu Öndərin təşəbbüsü ilə sosial-iqtisadi və mədəni sahələrdə həyata keçirilən tədbirlər, qazanılan nailiyyətlər ölkəmizin dövlət müstəqilliyi dövrü üçün mühüm sosial-iqtisadi və mədəni baza, təməl rolunu oynayıb. Həmin illərdə Ümummilli Liderimizin xalq qarşısında ən böyük xidmətlərindən biri də təhsilin və elmin inkişafı, milli kadr potensialının, həmçinin Azərbaycanın müxtəlif sahələrdə ehtiyac duyduğu nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Ulu Öndər həm Sovet İttifaqı dövründə, həm də müstəqillik illərində bu sahələrə xüsusi diqqət yetirərək, onları dövlət səviyyəsində əsas prioritetlər kimi müəyyən etmişdi. Ulu Öndərin yorulmaz səyləri nəticəsində 1970-1980-ci illərdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəblərində 80-dən artıq sahəni əhatə edən 250-dən çox ixtisas üzrə 15 minədək azərbaycanlı gəncin ali təhsil almasına, yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmasına şərait yarandı.

Bildirilib ki, əgər 1969-cu ildə SSRİ-nin tanınmış ali məktəblərinə 50-dən az adam göndərilirdisə, 1973-cü ildə onların sayı 140-dan artıq, 1974-cü ildə 357, 1975-ci ildə 700-ə yaxın və 1976-cı ildən başlayaraq 800-900 nəfərə çatdırıldı. 1980-ci illərin əvvəllərindən isə 1000-dək Azərbaycan gənci respublikadan kənarda SSRİ-nin məşhur ali təhsil müəssisələrinə təhsil almağa göndərilmişdi. Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların xüsusi çəkisi 1970-ci ilədək cəmi 40 faiz təşkil edirdisə, 1976-cı ildə bu rəqəm 85 faizə, 1977-ci ildə 92 faizə, 1980-ci illərin əvvəllərində isə 98 faizə yüksəldi. Əvvəlki illərlə müqayisədə həm tələbələrin, həm ali məktəblərin və həm də ixtisasların sayı sürətlə artdı.

Daha sonra Yaroslavl Ali Hərbi Maliyyə Məktəbinin 1988-ci il məzunu, Dövlət Sərhəd Xidmətinin rəisinin müavini, general-leytenant Cavid Abdullayev, Moskva Dövlət Universitetinin 1982-ci il məzunu, Azərbaycan Tibb Universiteti, Bioloji kimya kafedrasının müdiri, biologiya elmləri doktoru, professor Gülnarə Əzizova, Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun 1982-ci il məzunu, Əməkdar incəsənət xadimi Ayaz Salayev, Moskva Dövlət Universitetinin 1983-cü il məzunu, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü Gülşən Paşayeva, Kolumbiya Universitetinin 2008-ci il məzunu, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf, Nyu-York Universitetinin 1999-cu il məzunu, İ.M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru Əziz Əliyevin çıxışları dinlənilib.

Bildirilib ki, Ulu Öndər Azərbaycandan kənarda təhsil alan gəncləri hər zaman diqqət mərkəzində saxlayır, onların inkişafına hər cür qayğı göstərirdi. Hər il avqust ayının axırlarında Vətəndən kənarda təhsil alacaq tələbə gənclərlə görüşür, öz dəyərli tövsiyələrini verirdi. 1969-cu ildən 1982-ci ilin avqust ayına qədər bir il də olmayıb ki, Ümummilli Liderimiz tələbələrlə görüş keçirməsin. Azərbaycandan kənarda təhsil almağa göndərdiyi gəncləri öz doğma övladları adlandıran Ulu Öndər deyirdi: “Vaxt gələcək ki, bu kadrlar Azərbaycana lazım olacaqlar. Vaxt gələcək ki, nəhayət, Azərbaycan müstəqil olacaqdır və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəkdir”.

Qeyd olunub ki, Ümummilli Liderin müəllifi olduğu davamlı inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində dinamik sosial-iqtisadi tərəqqisini təmin edən Azərbaycan regionun lider dövlətinə çevrilib. Ulu Öndərin müəllifi olduğu strateji inkişaf konsepsiyasının əsas istiqamətlərindən biri də insan kapitalının gücləndirilməsi və yüksəkixtisaslı kadr potensialının formalaşdırılması olduğunu xatırladan natiqlər bildiriblər ki, Ulu Öndər Azərbaycandan kənarda təhsil alan gənclərin fəaliyyətini daim diqqət mərkəzində saxlayır, onların inkişafına yüksək qayğı göstərir, onları “Azərbaycanın milli sərvəti” adlandırırdı.

Toplantıda Azərbaycanın Xalq artisti Samir Cəfərov fortepianoda Roza Səlimovanın müşayiəti ilə “Sən elə bir zirvəsən”, Əməkdar artist İlham Nəzərov fortepianoda Roza Səlimovanın müşayiəti ilə “Sənsiz” romansını ifa ediblər, Ulu Öndərin “Alagöz” və “Küçələrə su səpmişəm” mahnılarını səsləndirdiyi görüntülər təqdim olunub. Sonra ekranda Ulu Öndərin Səməd Vurğunun “Azərbaycan” şeirini səsləndirməsi nümayiş etdirilib. Toplantı Əməkdar artist Xəyyam Mustafazadənin ifasında “Azərbaycan” mahnısı ilə yekunlaşıb.

# Bölgə məktəbi müasir görkəmdə





## Nazir Qusar rayonu Hil kənd tam orta məktəbində olub

Aprelin 28-də elm və təhsil naziri Emin Əmrullayev Qusar rayonunun Hil kəndində professor Kərim Kərimov adına tam orta məktəbi ziyarət edib.

Məktəbdə yaradılmış şərait və tədris prosesi ilə tanış olan Emin Əmrullayev müəllim və şagirdlərlə görüşüb, onlarla səmimi söhbət aparıb.

Bildirilib ki, hazırda məktəbdə Azərbaycan və rus bölməsi ilə birlikdə ümumilikdə 31 sinif komplektində və 2 məktəbəhazırlıq qrupunda 636 şagird təhsil alır. Şagirdlərin təlim-tərbiyəsi ilə 51 müəllim məşğul olur. Təhsil müəssisəsində 2 fizika, 2 kimya və 2 biologiya laboratoriyası, 2 əmək təlimi otağı, kitabxana, 350 yerlik akt zalı, idman zalı, həmçinin 92 yerlik yeməkxana mövcuddur.

Məktəbdə fəaliyyət göstərən peşə təmayüllü siniflərdə tədrisin gedişatını da izləyən Emin Əmrullayevə məlumat verilib ki, təhsil ocağında "Peşə təmayüllü siniflərin təşkili" layihəsi 2018-2019-cu tədris ilindən etibarən tətbiq olunur. Hazırda məktəb üzrə ümumilikdə 32 nəfər 10-11-ci sinif şagirdi layihə çərçivəsində tədrisə cəlb edilib.

# Həssas yanaşma, vətəndaş məmnunluğu

## Elm və təhsil naziri Qusarda vətəndaşları qəbul edib







Aprelin 28-də elm və təhsil naziri Emin Əmrullayev Qusarda vətəndaş qəbulu keçirib. Qəbulda Qusar, Quba, Xaçmaz, Şabran və Siyəzən rayon sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbulda vətəndaşlar, əsasən, müəllimlərin və direktorların işə qəbulu, təhsilverənlərin yerdəyişməsi, dərs saatlarının bölgüsü, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları diqqətlə dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# "İnklüzivliyə doğru növbəti addım"

Aprelin 27-də Şamaxı şəhər 2 nömrəli tam orta məktəbdə Bakı Slavyan Universitetinin (BSU) Dağlıq Şirvan Regional Təhsil İdarəsi ilə birgə təşkil etdiyi "İnklüzivliyə doğru növbəti addım" mövzusunda "dəyirmi masa" keçirilib.





## BSU və Dağlıq Şirvan Regional Təhsil İdarəsi Şamaxıda birgə "dəyirmi masa" keçirib

Tədbir cari ilin 2 iyun tarixində BSU-da keçiriləcək "İnklüziv təhsildən inklüziv cəmiyyətə" adlı II Respublika elmi-praktik konfransı öncəsi bir neçə regionda (Şirvanda, Şamaxıda, Qusarda) nəzərdə tutulmuş silsilə tədbirlərdən biridir. Bu görüşlərin keçirilməsində başlıca məqsəd regionlarda inklüziv təhsillə bağlı vəziyyəti öyrənib müzakirə etmək, fikir mübadiləsi əsasında ümumiləşdirmələr aparmaq və nəticədə respublikamızın inklüziv təhsilinə töhfələr verməkdən ibarətdir.

Öncə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canını fəda etmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra BSU-nun nümayəndə heyəti məktəbin Heydər Əliyev Muzeyində Ulu Öndərin keçdiyi şərəfli, zəngin həyat yolunun müxtəlif dövrlərini əks etdirən məlumatlar, kitablar və fotolarla tanış olub.

Tədbiri Dağlıq Şirvan Regional Təhsil İdarəsinin müdiri Rövşən Əliyev açaraq ölkəmizdə inklüziv cəmiyyətin inkişaf etdirilməsinin dövlətin sosial siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyən edildiyini bildirib. Bu istiqamətdə müvafiq işlərin həyata keçirilməsinin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu deyib. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən bu sahədə olan qanunvericiliyin yeni dövrün tələblərinə uyğunlaşdırıldığı diqqətə çatdırılıb. Təhsil İdarəsinin müdiri "dəyirmi masa"nın keçirilməsinin, regionlarda inklüziv təhsillə bağlı universitet, yerli icma və yerli məktəblər, təhsil müəssisələri arasında müzakirə və fikir mübadiləsinin aparılmasının vacibliyini qeyd edib. Bu məqsədlə "dəyirmi masa"da bir sıra məktəb rəhbərlərinin iştirak etdiyini qeyd edib. Rövşən Əliyev tədbirin iştirakçılar üçün faydalı olacağından əminliyini ifadə edib.

BSU-nun Tədris işləri üzrə prorektoru Ənvər Abbasov rektor Anar Nağıyevin salamlarını "dəyirmi masa" iştirakçılarına çatdırıb. O, 2005-ci ildə BMT-nin davamlı inkişaf məqsələrinin qəbul olunduğunu və 17 məqsəddən birinin məhz davamlı təhsil və inklüzivlik olduğunu bildirib. Təhsil müəssisələrində inklüziv təhsilin qurulması zərurətindən və müasir dövrdə inklüziv təhsilin əhəmiyyətindən söz açıb. Bu sosial qrupa aid olan uşaqların ünsiyyətinin vacibliyini, inklüziv təhsilin cəmiyyətdə bərabər təhsil mühitinin yaradılmasındakı mühüm rolunu nəzərə çatdırıb. İnklüziv təhsillə bağlı təbliğat işinin də vacibliyini qeyd edən prorektor BSU-da İbtidai təhsil kafedrasında inklüziv təhsil qrupunun yaradıldığını deyib.

BSU-nun Elmi işlər üzrə prorektoru Nailə Xəndan "dəyirmi masa"nın əhəmiyyətini vurğulayaraq, sosiallaşmanın əlilliyi olan uşaqların təhsilində rolundan danışıb. İnklüziv təhsilin bu uşaqların gələcəkdə həm təhsilin bütün pillələrində, həm də iş həyatında zəruri olduğunu deyib.

BSU-nun təhsil fakültəsinin dekanı Sevinc Axundova gələcək birgə əməkdaşlıq üçün bu "dəyirmi masa"nın rolunu vurğulayıb. Fakültə barədə məlumat verərək, tədris olunan ixtisaslara 2022-ci ildən psixologiya və korreksiyaedici təlim ixtisaslarının əlavə olunduğunu qeyd edib. İnklüziv təhsilin bu ixtisasların da fənn bloklarında nəzərdə tutulduğunu vurğulayıb. BSU-nun inklüziv strategiyasının həyata keçirilməsində bir sıra addımların atıldığını diqqətə çatdırıb, bu sahədə keçirilən tədbirləri, o cümlədən maariflendirmə həftəsi, xüsusi tematik otaqların təşkil olunması, inklüziv təhsil üzrə mütəxəssislərin terapiya və oyun otaqlarında təlimlər keçdiyini qeyd edib. Beynəlxalq ekspertlərin, həmçinin qeyri-hökumət təşkilatlarının, dövlət idarələri və təhsil müəssisələrinin nümayəndələrinin iştirakı ilə seminarların təşkil olunduğunu vurğulayıb.

BSU-nun ibtidai təhsil kafedrasının müdiri Aytəkin Axundova kafedranın fəaliyyətindən danışaraq, inklüziv təhsillə bağlı layihənin 2014-cü ildən başladığını deyib. Kafedrada inklüziv təhsilin tədrisindən, "İnklüziv təhsildən inklüziv cəmiyyətə doğru" "dəyirmi masa"dan söz açıb, əlilliyi olan uşaqların cəmiyyətə qazandırılması üçün BSU tələbələrinin könüllü kimi layihənin işində fəal iştirak etdiyini, gələcəkdə məzunların əlilliyi olan uşaqlarla işləyən, əmək bazarında bu sahədə peşəkar kadrlar kimi formalaşdığını bildirib.

ADPU-nun və BSU-nun ibtidai təhsil kafedrasının dosenti Gülşən Eminova "İnklüziv təhsilin səmərəli həyata keçirilməsi üçün vacib olan şərtlər, sinif strategiyaları və yardımçı təlim texnologiyaları" mövzusunda məruzə ilə çıxış edib. O, inklüziv təhsilin tətbiqindən söz açıb, dərslərin təşkili zamanı əlilliyi olan uşaqların və digər həssas qruplardan olan şagirdlərin nəzərə alınması, təhsilin əlçatanlığı, hamıya ədalətli və bərabər yanaşma strategiyasının zəruri olduğunu deyib. BSU-da təşkil olunmuş "İnklüziv təhsil inklüziv cəmiyyətə doğru" konfransından bəhs edərək, layihə çərçivəsində son iki il ərzində BSU-nun təhsil fakültəsinin tələbələrinin əlilliyi olan və əlilliyi olmayan uşaqlarla işləyərək təcrübə qazandıqlarını qeyd edib. Ölkəmizdə inklüziv təhsilin inkişafı ilə əlaqədar müxtəlif vaxtlarda təsdiq olunmuş qanunvericilik bazasına da toxunub.

Dağlıq Şirvan Regional Təhsil İdarəsinin sektor müdiri Gülnisə Ələkbərova çıxışında xüsusilə bölgələr üzrə əlilliyi olan uşaqların təhsilə yönəldilməsinin vacibliyini qeyd edib, bu fəaliyyətin onların mühitə uyğunlaşdırılması məqsədi daşıdığını vurğulayıb. Bu sosial qruplara aid olan həm uşaqlar, həm də valideynlərin görüşlərinin təşkil olunmasının vacibliyini qeyd edib.

ADPU-nun Şamaxı filialının direktoru dosent Tünzalə Yusifova filialın Heydər Əliyev Fondunun müəllimlərin inklüziv təhsilə cəlb olunması layihəsində təmsil olunduğunu deyib. Layihə çərçivəsində İnklüziv tədris mərkəzinin yaradıldığını qeyd edərək, mərkəzin fəaliyyətinə toxunub.

Şamaxı Dövlət Regional Kollecinin direktoru, dosent İlham Vəliyev kollec haqqında məlumat verib, bu təhsil müəssisəsinin inklüziv təhsil ixtisasının mövcudluğundan söz açıb. O, inklüziv təhsil üzrə kadr potensialının formalaşdırılması zərurətini qeyd edib.

BSU-nun İbtidai təhsil kafedrasının dosenti Hafiz Əliyev inklüziv təhsilin metodikasından və baş müəllimi Fidan Əfəndiyeva əlilliyi olan uşaqlarla inklüziv təhsilin təşkilindən danışıblar.

Tədbirin sonunda mövzu ətrafında fikir mübadiləsi aparılıb.

# “Tarix yaradan şəxsiyyət” adlı yubiley konserti keçirilib






Mayın 4-də Heydər Əliyev sarayında məktəblilərin iştirakı ilə Ümummilli Lider Heydər Əliyevin 100-cü ildönümünə həsr olunmuş “Tarix yaradan şəxsiyyət” adlı yubiley konserti keçirilib.

Konsertdə məktəblilər Ulu Öndərin ən sevdiyi mahnıları səsləndirib, həmçinin Heydər Əliyevə həsr olunan bədii qiraət və digər ədəbi-bədii kompozisiya nümunələri nümayiş etdiriblər.

Tədbirdə Elm və Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər inkişaf mərkəzləri, Bülbül adına Orta İxtisas Musiqi Məktəbi, Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət gimnaziyası və digər incəsənətyönümlü təhsil müəssisələrinin şagirdləri çıxış ediblər. Heydər Əliyevin həyat yolu, zəngin və çoxşaxəli irsi, zəngin dövlətçilik təcrübəsini özündə əks etdirən videoçarxlar da nümayiş olunub.

Konsertdə millət vəkilləri və digər dövlət rəsmiləri, tanınmış mədəniyyət və incəsənət xadimləri, Vətən müharibəsi şəhid övladları, valideyn himayəsindən məhrum olmuş və sağlamlıq imkanları məhdud uşaqlar üçün internat və ümumtəhsil məktəblərinin şagirdləri iştirak edib.

# “Heydər Əliyev və müasir türk dünyası”



## Beynəlxalq elmi-praktik konfrans keçirilib

Mayın 2-də Azərbaycan Ağsaqqallar Şurası, Azərbaycan Kooperasiya Universiteti və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev və müasir türk dünyası” adlı beynəlxalq elmi-praktik konfrans keçirilib.

Əvvəlcə konfrans iştirakçıları Fəxri xiyabana gələrək Ümummilli Lider Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Şimali Kipr Türk Respublikası, Pakistan və Gürcüstandan olan görkəmli alimlər, ictimai-siyasi xadimlər, eləcə də respublikamızın tanınmış ziyalılarının iştirakı ilə keçirilən beynəlxalq elmi konfransın plenar iclası Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Sonra Ulu Öndər Heydər Əliyevin keçdiyi ömür yolu və türk dünyasının müasir əlaqələrini özündə əks etdirən videoçarx nümayiş olunub.

Konfransın Təşkilat Komitəsinin sədri və Azərbaycan Kooperasiya Universitetinin rektoru Eldar Quliyev giriş nitqi ilə çıxış edib.

Tədbirdə həmçinin elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Azərbaycan İqtisadçılar İttifaqının sədri, millət vəkili Ziyad Səmədzadə, Türk Dövlətləri Təşkilatının baş katibinin müavini Yerjan Mukaş, Özbəkistanın Qəhrəman Ali Məclisinin senatoru Sodiqjon Turdiyev və digərləri çıxış ediblər.

Konfransda Azərbaycanın türk dünyası ilə əlaqələrinin qurulmasında, münasibətlərin dərinləşməsində, habelə ölkəmizdəki tolerantlıq mühiti və azərbaycançılıq ideologiyasının inkişafında Heydər Əliyevin əvəzsiz xidmətləri xüsusi qeyd edilib.

Plenar iclasdan sonra konfrans işini bölmələr üzrə davam etdirib.

# İdman həyəcanı, qələbə sevinci






Şöhrət Yusifov



Hüseyn Novruzov



Əliəkbər Şəbiyev



Əli Quliyev

## Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş futzal yarışlarının bağlanış mərasimi

Mayın 3-də Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən futzal üzrə turnirə yekun vurulub.

Elm və Təhsil Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı ilə Bakı İdman Sarayında baş tutan final qarşılaşmasında III yer uğrunda Bakı Dövlət Universiteti Gəncə Dövlət Universitetinin komandasına qalib gəlib. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının komandası Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin komandasını məğlub edərək çempionatın qalibi olub.

Oyunlardan sonra Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş futzal yarışlarının bağlanış mərasimi keçirilib. Mərasimdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Milli Məclisin sədr müavini Adil Əliyev, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynov Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev, AHİK-in, AFFA-nın rəsmi şəxsləri, veteran futbolçular, idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Bağlanış mərasimində çıxış edən elm və təhsil nazirinin müavini, Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin prezidenti, AFFA-nın İcraiyyə komitəsinin üzvü Firudin Qurbanov Ümummilli Lider Heydər Əliyevin idmanın inkişafındakı müstəsna rolundan, ölkəmizdə idman sahəsinə olan dövlət qayğısından danışıb. F.Qurbanov müasir dövrdə ölkə Prezidenti cənab İlham Əliyevin idmana olan diqqəti və qayğısı sayəsində respublikamızın artıq idman ölkəsi kimi dünyada layiqli yerini tutmasını qeyd edib. Bu yarışın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında futzalın təbliğində, perspektivli idmançıların aşkar edilməsində xüsusi rol oynadığını, idmanın yetişməkdə olan gənc nəslin sağlamlığının təmin edilməsində, onların vətənpərvərlik hisslərinin tərbiyəsində xüsusi əhəmiyyət daşıdığını qeyd edib.

Tədbirdə çıxış edən Milli Məclisin sədr müavini, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Adil Əliyev Ümummilli Liderin qayğısı sayəsində idman sahəsində görülən işlərdən, əldə olunan nailiyyətlərdən danışıb. O, gənclər və idman siyasətinin Azərbaycan dövlətinin prioritetlərindən biri olduğunu vurğulayaraq gənclərimizin fiziki cəhətdən sağlam, vətənpərvər ruhda yetişməsində idmanın, bədən tərbiyəsinin kütləviliyinin rolunu xüsusi qeyd edib. A.Əliyev Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dövlətimizi şanlı qələbəyə aparan daxili və xarici siyasəti barədə məlumat verib, torpaqlarımızın azad olunmasında gənclərin rolunu xüsusi vurğulayıb.

Çıxışlardan sonra I, II, III yerləri tutan komandalar diplom, kubok və qiymətli hədiyyələrlə mükafatlandırılıb. Turnirdə fərqlənən üç tələbə futbolçu “Ən yaxşı qapıçı”, “Ən məhsuldar oyunçu”, “Ən gənc oyunçu” nominasiyaları üzrə xüsusi mükafatla təltif olunub.

Qeyd edək ki, çempionatın keçirilməsində məqsəd Ümummilli Lider Heydər Əliyevin irsinin aşılanması, yerli ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında futzal idman növünün kütləviliyinin təmin edilməsi, beynəlxalq yarışlarda iştirak üçün respublikanın tələbələrdən ibarət yığma komandasına namizədlərin müəyyənləşdirilməsidir. Bununla yanaşı, ölkənin yeniyetmə, gənclərdən ibarət yığma komandalarına perspektivli tələbələrin seçiminin təminatı, ən güclü futzal komandasının müəyyən edilməsi, beynəlxalq turnirlərdə iştirak edəcək komandaların təyini və tələbələr arasında dostluq əlaqələrinin yaradılması da məqsədlər sırasındadır. 500-ə yaxın tələbənin iştirak etdiyi yarışlarda 19-u Bakı şəhəri, 13-ü regionlardan olmaqla ümumilikdə 32 ali və orta ixtisas təhsili müəssisələrinin komandaları mübarizə aparıb. Yarışlar yarımqrup oyunları, pley-off, yarımfinal və final mərhələləri üzrə təşkil edilib.

Fürsətdən istifadə edib qalib komandanın, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbələri ilə görüşdük. Onlar sevinclərini bizimlə bölüşdü.

**Şöhrət Yusifov,** *Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının magistr tələbəsi, komandanın kapitanı:* “Mənim üçün çox xoş oldu ki, bu çempionatda iştirak etdim. Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş futzal yarışları olduqca maraqlı keçdi. Bizlər qalib olmaya bilməzdik. Qarşımıza məqsəd qoymuşduq ki, bu çempionatın qalibi olmalıyıq. Bu gün çox sevincliyik”.

**Hüseyn Novruzov,** *Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının V kurs tələbəsi, komandanın hücumçusu:* “Çempionat çox yüksək səviyyədə təşkil olunmuşdu. Fəxr edirik ki, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş bu yarışda biz də iştirak etdik və qalib olduq. Final oyunu əvvəlki oyunlarla müqayisədə daha da gərgin oldu. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin komandası da final yarışına güclü hazırlaşmışdı. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev başda olmaqla hamını təbrik edirəm”.

**Əliəkbər Şəbiyev,** *Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının II kurs tələbəsi, müdafiəçi:* “Allaha çox şükür olsun ki, çempion olduq. Yarış olduqca maraqlı və gərgin keçdi. Buna baxmayaraq qalib olduğumuza görə çox sevincliyik. Ulu Öndər Heydər Əliyevi çox sevirik. Onun adı ilə bağlı olduğuna görə komanda üzvlərinin hər bir oyunçusu söz vermişdiki biz qalib olmalıyıq. Belə yarışın yüksək səviyyədə təşkil olunmasına görə əməyi olan hər kəsə təşəkkür edirik.

**Əli Quliyev,** *Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının II kurs tələbəsi, qapıçı:* “Bu yarışda demək olar ki, məsuliyyət ən çox mənim üzərimdə idi. Çalışırdım səhv etməyəm. Çox şükür edirəm ki, üzərimə düşən vəzifəni layiqincə yerinə yetirdim. Mükafatlandırmada “Ən yaxşı qapıçı” nominasiyasına layiq görüldüm”.

**Rəşad ZİYADOV**

# 2023 – "Heydər Əliyev İli"

Müstəqillik əldə etdikdən sonra Azərbaycan xalqının milli-mənəvi dəyərlərə sahib olmasına real imkanlar yarandı. Bu yolda Ulu Öndər Heydər Əliyevin yorulmaz fəaliyyəti, zəkası, onun dərin fəlsəfi, tərbiyəvi mahiyyət daşıyan çıxışları əhəmiyyətli rol oynadı. Azərbaycançılıq ideyasının formalaşmasında, bu ideyanın xalqın milli təfəkkürünə həkk olunmasında Ümummilli Liderin geniş elmi bilikləri, siyasi baxışları mayak rolunu oynadı.

Ulu Öndər Azərbaycan xalqının milli məfkurəyə sahib olması üçün onun bir bayraq altında birləşməsinə nail oldu. Siyasi fəaliyyətini Naxçıvanda davam etdirərkən Şərqdə ilk demokratik cümhuriyyətin, ADR-in bayrağını bu qədim diyarda ucaltmağa nail oldu. Bu, dünya azərbaycanlılarının bir bayraq altında birləşməsində ilk addım oldu.

Ulu Öndər bu məqsədə nail olmaq üçün "Dünya Azərbaycanlılarının Həmrəylik Günü"nün 31 dekabrda qeyd olunması üçün sərəncam imzaladı. Hər il bayram edilən bu gün dünya azərbaycanlılarının monolit şəkildə birləşməsinə imkan yaratdı. Bu bayramın hər il yüksək əhvali-ruhiyyə ilə qeyd edilməsi gənc nəslin milli ruhda böyüməsi və tərbiyə olunmasında mayak rolunu oynadı. Türk dövlətləri şurasının, türk dövlətləri təşkilatının bünövrəsinin Heydər Əliyev tərəfindən qoyulmasını söyləmək daha doğru olardı.



Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə Ulu Öndər elm, təhsil və tədris məsələlərini önə çəkmiş, bu sahəyə böyük diqqət və qayğı göstərmişdir. Dahi rəhbərin imzaladığı bir sıra mühüm fərman və sərəncamların bu sahənin inkişafında xüsusi rolu olmuşdur. Milli elm və təhsilin inkişafı məhz Heydər Əliyev siyasi kursunun uğurudur. Heydər Əliyev Azərbaycanın müasir elm və təhsil konsepsiyasının banisidir. Ulu Öndərin rəhbərliyi ilə həm sovet, həm də müstəqillik dövründə təhsilimizin inkişafı ilə bağlı bir sıra sanballı islahatlar həyata keçirilmişdir. Ümummilli Liderimiz bu istiqamətdə hər zaman bir şüarı əsas tutub: "Təhsil millətin gələcəyidir". Məhz Ulu Öndər bu ülvi amal uğrunda yorulmadan çalışıb. Hələ sovet dövründə hər il onlarla, yüzlərlə gənci SSRİ-nin müxtəlif şəhərlərinə oxumağa göndərib. 1971-ci ildə Azərbaycanın gələcəkdə müstəqil olacağını böyük bir uzaqgörənliklə düşünən Ulu Öndər Cəmşid Naxçıvanksi adına hərbi liseyin əsasını qoyub. Həmin liseyin məzunları müstəqilliyimizin ilk illərində, eləcə də ondan sonrakı dövrlərdə Azərbaycan xalqının ərazi bütövlüyü və suverenliyinin təmin olunmasında ixtisaslı hərbi kadrlar kimi böyük rəşadətlər göstəriblər. Ulu Öndər Heydər Əliyev təhsil işçiləri ilə görüşlərində hər zaman vurğulayırdı ki, məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır.

## Heydər Əliyevin millilik və ümumbəşərilik konsepsiyaları

Türk dünyasına qovuşmağın vacib olduğunu söyləyən Ümummilli Lider qeyd edirdi: "Bir millət, iki dövlət sözləri hər bir azərbaycanlının qulağında səslənməlidir. Bu ifadə bizim gələcəyimizin proqramıdır".

Ulu Öndər milli-mənəvi dəyərimiz olan Azərbaycan dilinin zənginləşməsi, inkişafını da daim diqqət mərkəzində saxlayırdı. Milli dəyərlərimiz olan dilimizin, ədəbiyyatımızın zənginləşməsi, inkişafı üçün maddi, mənəvi yardımı yaradıcı insanlardan əsirgəmirdi. Xüsusilə Azərbaycan dilinin inkişafını milliliyin əsası kimi qiymətləndirirdi.

Dilimiz milli olsa da, onun leksikası, qrammatikasının ümumbəşəri meyarlar əsasında təkmilləşməsi Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Buna uyğun olaraq o, bir sıra sərəncamlar imzalayaraq həyata keçirilməsinə nail olmuşdur. Bunu onun imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il, "Azərbaycanda latın qrafikasına keçirilməsi haqqında" 1 avqust 2001-ci il tarixli fərmanları ilə təsdiq etmək olar.

Ulu Öndərin millilik konsepsiyasının həyata keçirilməsinə misal olaraq 4 iyul 2001-ci ildə onun imzaladığı "Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında" Sərəncamını göstərmək olar.

Dahi şəxsiyyətin millilik konsepsiyasının həyata keçirilməsini onun imzaladığı "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixində imzaladığı sərəncamı ilə də təsdiq etmək olar.

Azərbaycan dilinin inkişafı və onun dövlət dili kimi təkmilləşdirilməsinə Ulu Öndər tək millilik prizmasından yanaşmırdı. Onun ümumbəşəri dəyərlər fonunda formalaşmasına çalışırdı. Elm, təhsil, mədəniyyətimizin inkişafında dil faktorunun yerini aydın görürdü. Onun uzaqgörənliyi sayəsində bu gün Azərbaycan elmi, təhsili dünya elm, təhsil sisteminə inteqrasiya yolunda uğurla irəliləməkdədir.

Onun milli konsepsiyasına Azərbaycandan kənarda yaşayan soydaşlarımızın həyat və fəaliyyəti də daxil idi. O, Gürcüstanda yaşayan soydaşlarımıza qayğını da diqqət mərkəzində saxlayırdı. Onların öz ana dilində təhsil alması üçün dərslik və dərs vəsaitləri ilə təmin olunmasına qayğı göstərirdi.

Ulu Öndər milli sərvətimiz olan ədəbiyyatımızın inkişafına da xüsusi qayğı göstərirdi. Klassik bədii nümunələrin yenidən çap edilməsi, tanınmış şair, yazıçıların, incəsənət ustalarının xatirələrinin əbədiləşdirilməsi yolunda tədbirlərin həyata keçirilməsinə nail olurdu. Şairlərə, yazıçılara ümumbəşəri dəyərlərə söykənən ədəbi əsərlərin yazılmasını tövsiyə edirdi. O, qeyd edirdi: "Azərbaycan ədəbiyyatı milli kökləri ilə yaşayan, özünü yaşadan milli varlığını sübut edən ədəbiyyatdır".

O, ideoloji yanaşmalardan uzaq olan əsərlərin meydana gəlməsini vacib sayırdı. Onun Azərbaycan yazıçılarının X qurultayında işlətdiyi bir cümlə mənim də doktorluq dissertasiyamın müdafiəsinə yol açdı. "Ümumbəşəri dəyərlərin mənimsənilməsi əsasında şagirdlərin elmi dünyagörüşünün formalaşması" mövzusunda 1993-cü ildə bitirdiyim doktorluq dissertasiyasını müdafiə edə bildim. Ulu Öndərin yazıçıların X qurultayında fasilə zamanı iki yazarla söhbətində dediyi "ideologiya, milli ideologiya" haqqında danışırlar. İndi kommunist partiyası tərəfindən hazırlanan ideologiya yoxdur. Buna heç ehtiyac da yoxdur. Bizim ideologiyamız iki il bundan əvvəl qəbul etdiyimiz Konstitusiyamızda öz əksini tapmışdır..." kəlamları bədii ədəbiyyatda, elmdə, təhsildə ümumbəşəri dəyərlərə istinad etməyin vacib olduğunu göstərir.

Bədii nümunələrin yenidən çap etdirilməsini, şair və yazıçıların yubileylərinin keçirilməsini o, gənclərimizin milli ruhda tərbiyə edilməsində bir vasitə hesab edirdi. Məhəmməd Füzulinin 500 illik yubileyində qeyd edirdi: "Məhəmməd Füzuli kimi şəxsiyyəti olan xalq fəxr edə bilər".

"Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin qeyd edilməsi zamanı çıxışında Ümummilli Lider deyirdi: "Kitabi-Dədə Qorqud" dastanı tarixi köklərimizi dünyaya göstərir, oğuz türk mənşəyimizi və zəngin tariximizi sübut edir.

Yüzlərlə şair və yazıçıların yubileyində Heydər Əliyev millilik və ümumbəşəri ideyaların bədii ədəbiyyatdakı rolunu və onun gənc nəslin formalaşmasında əhəmiyyətini xüsusi vurğulayırdı.

Ümumiyyətlə, Heydər Əliyevin millilik və ümumbəşərilik ideyaları vəhdətdə tətbiq edilərək gənclərimizin milli qürur, milli iftixar hisslərinin formalaşmasında, elmdə, təhsildə, ədəbiyyatda, mədəni həyatımızda ümumbəşəri tələblərə əməl edilməsində metodoloji prinsip kimi qəbul edildi.

**Kərim MƏMMƏDOV,**
*Bakı Slavyan Universiteti, pedaqoji elmlər doktoru, professor*

## Elm və təhsilin inkişafı naminə

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması Azərbaycanın ictimai-siyasi həyatına yeni ab-hava gətirdi. Təhsil işçiləri, ziyalılar dövlətin yüksək qayğısı ilə əhatə olundular.

Heydər Əliyev azərbaycançılıq ideologiyasına mühüm önəm verirdi. Qədim yazılı abidə olan "Kitabi-Dədə Qorqud"da milli düşüncə, azərbaycançılıq ideologiyası geniş əksini tapdığından Ulu Öndər alimlərin dastanın araşdırılması və tədqiqinə normal şərait yaratdı. "Azərbaycan ədəbiyyatı çoxəsrlik tarixi olan "Kitabi-Dədə Qorqud" kimi ədəbi abidələrlə, Nizaminin nəhəng yaradıcılığı ilə, Xaqaninin və Nəsiminin, Füzulinin və Vaqifin, söz sənəti bahadırlarının dahiyanə əsərləri ilə, aşıq poeziyasının həmişə canlı nümunələri ilə zəngindir", - deyən Heydər Əliyevin təşəbbüsü ilə "Kitabi-Dədə Qorqud"un motivləri əsasında bədii film çəkildi.

Ulu Öndər Heydər Əliyevin dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyi münasibətilə "Füzuli ensiklopediyası"nın hazırlanması və nəşr edilməsi haqqında Sərəncamı, 1999-cu il mayın 15-də isə "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin layiqincə hazırlanması və keçirilməsi haqqında Fərman imzalaması da onun elmə və mədəniyyətə verdiyi yüksək qiymətin təcəssümü idi.

Ümummilli Liderin xüsusi diqqət yetirdiyi məsələlərdən biri də respublikamızda təhsil sisteminin yaxşılaşdırılması ilə bağlı idi. Buna görə də Ulu Öndər təhsilin milli tərəqqinin gerçək amilinə çevrilməsi üçün geniş islahatlar proqramının hazırlanaraq reallaşdırılması vəzifəsini qarşıya qoydu. 1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında" Sərəncam imzalaması isə bu sahədə təkmil qanunverici bazanın formalaşdırılması, təhsil konsepsiyasının hüquqi əsaslarının yaradılması məqsədindən irəli gəlirdi.

Çox qısa müddətdə komissiyanın hazırladığı "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" geniş müzakirələrdən sonra 1999-cu ilin iyununda imzalanaraq qüvvəyə mindi. Həmin proqram ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, milli təhsil ənənələrinə sadiq qalınmasını da təmin edirdi.

Heydər Əliyevin elm və təhsil sahəsində atdığı addımlardan biri də 15 may 2001-ci il tarixli Fərmanı oldu. Həmin fərmanla Elmlər Akademiyasına Milli Elmlər Akademiyası adı verilmiş və bununla da akademiyanın elmimizin inkişafındakı rolu və nailiyyətləri rəsmən təsdiqlənmişdi.

1997-ci il yanvarın 31-də Heydər Əliyev Elmlər Akademiyasının rəhbərliyini və aparıcı alimlər qrupunu qəbul edərək, elm sahəsində islahatların aparılmasının vacibliyini bildirdi. Milli Elmlər Akademiyasının Rəyasət Heyəti Ulu Öndərin tövsiyələrini rəhbər tutaraq akademiyada islahatların aparılmasına başlanıldı. Eyni zamanda, elmi tədqiqat istiqamətlərinin dəqiqləşdirilməsi, elmi-təşkilati bazanın hazırlanması sahələrinə dair qərarlar qəbul edib, Azərbaycanda elmin inkişaf strategiyasının əsas müddəalarını müəyyənləşdirdi və tədbirlər həyata keçirildi. "Elmin strateji inkişafı və Azərbaycanın Milli Elmlər Akademiyasında islahatlar" konsepsiyası hazırlandı. Akademiya alimləri ilə keçirdiyi həmin görüş zamanı Heydər Əliyev Azərbaycan elmi qarşısında dayanan əsaslı problemlərə toxundu. Onların aktuallığını əsaslandıraraq alimlərimizə Azərbaycan dövləti, xalqı üçün daha gərəkli strateji məsələlərlə məşğul olmağı tövsiyə etdi. Bu görüşdə Ümummilli Lider Heydər Əliyev elmin inkişaf strategiyasının əsas müddəalarını irəli sürdü. Humanitar elmlərin xüsusi əhəmiyyətə malik olduğunu vurğulayan Ulu Öndər ədəbiyyat, mədəniyyət tarixinin yazılması zəruriliyi barədə söhbət açdı. Çoxəsrlik Azərbaycan tarixinin dərindən öyrənilməsinin və yüksək elmi prinsiplər əsasında şərhinin dövlət üçün mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırdı.

Ulu Öndər Heydər Əliyev zaman-zaman qəbul etdiyi tarixi qərarları ilə, sözün əsl mənasında, yenilənməkdə olan müstəqil Azərbaycan dövlətinin qurucusuna çevrildi. 1994-cü il sentyabrın 20-də ölkənin tarixində son dərəcə taleyüklü bir hadisə baş verdi. Azərbaycan dövlətinin və xalqının firavan və xoşbəxt həyatının zəmanətinə çevrilmiş, sürətli inkişafa və tərəqqiyə, müstəqilliyin dönməzliyinə və təhlükəsizliyinə təminat verən, neft müqaviləsi - "Əsrin müqaviləsi" imzalandı. Məhz Ulu Öndərin qətiyyəti, iradəsi və cəsarəti sayəsində Azərbaycanın "qara qızılı" bu millətin ağ günlərinin tarixini yazmağa başladı. Bu çoxvektorlu inkişaf dinamikası özünü təhsilin inkişafında da göstərməkdə idi. Yeni-yeni təhsil ocaqları tikilərək istifadəyə verildi. Universitetlərin maddi-texniki bazaları mərhələli şəkildə zənginləşdirildi.

Bir faktı qeyd etmək kifayətdir ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda elm və təhsillə bağlı siyasəti artıq real şəkildə özünün müsbət təzahürünü göstərməkdədir. O, öz çıxışlarında təhsilin mürəkkəb və olduqca vacib bir sahə olduğunu vurğulayaraq qeyd edirdi ki, "Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır". Heydər Əliyev SSRİ dövründə, yəni Azərbaycan Respublikasına rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində də bu məsələni daim diqqət mərkəzində saxlamış, xalqımızın dahi oğlunun rəhbərliyi ilə təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişlənmişdir. Təhsil ocaqlarının sayı 765-dən 2117-yə çatdırılmışdı.

Ümummilli Lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdı.

Ulu Öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün lazımi şərait yaradılmışdır. Son dövrlər hər il tələbələrin müxtəlif fənlər üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələr keçirilir ki, bu da elmə, elmi tədqiqatlara olan marağı daha da artırır.

Azərbaycan təhsil tarixində böyük dönüş yaratmış 1999-cu il təhsil islahatına aparan yol heç də hamar deyildi. Müstəqilliyimizi bərpa etdiyimiz ilk illərdə mənəvi institutlarda sürətlə dağılma prosesi gedirdi. Sosial xaos və anarxiya, hər şeydən əvvəl, mənəvi ehtiyatlara zərbə vursa da, onun közərtisi qalmaqda idi. Heydər Əliyevin uzaqgörənliyi sayəsində təhsilin bütün istiqamətlərində Azərbaycan böyük irəliləyişlərə nail oldu. Müdrik rəhbərin göstərişi ilə büdcədən təhsil üçün nəzərdə tutulan vəsaitin həcmi ildən-ilə artırılırdı. Təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, dərsliklərin şagirdlərə pulsuz verilməsi, tədris prosesində informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi dövlət qayğısı sayəsində əldə olunmuş ən mühüm nailiyyətlərdən oldu.

2002-ci ilin sentyabrında Suraxanı rayonundakı 275 nömrəli tam orta məktəbdə olarkən Heydər Əliyev bu barədə deyirdi ki, yaxın zamanlarda Azərbaycanda məktəb tikintisi, məktəblərin müasir avadanlıqlarla təmin olunması, təmir edilməsi ilə əlaqədar ciddi tədbirlər haqqında öz təkliflərini irəli sürəcək. Çox keçmədi ki, həmin ilin oktyabr ayında "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncam imzalandı. Bu sərəncam məktəblərdə təlim şəraitinin və təlim mühitinin yaradılmasında ciddi dönüşə səbəb oldu.

Azərbaycan Prezidenti İlham Əliyev bu gün Ulu Öndərin təhsil siyasətini uğurla davam etdirir. Dövlətimizin başçısı çıxışlarında dəfələrlə qeyd edib ki, hər hansı bir xalq üçün ən böyük sərvət nə yeraltı, nə də yerüstü resurslardır. Xalqın ən böyük sərvəti həm maddi, həm də mənəvi cəhətdən yaxşı yetişdirilmiş insan resursları, kadr potensialıdır.

Təhsil, təlim-tərbiyə sisteminin təməlinin möhkəmləndirilməsi və inkişaf etdirilməsi dövlət siyasətinin ən prioritet məsələlərindən biridir. Sevindirici haldır ki, ölkəmizdə təhsilin inkişafının vacibliyi, əhəmiyyəti düzgün qiymətləndirilir və bu sahədə intensiv surətdə islahatlar aparılır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində respublikamızın hər yerində çoxlu sayda yeni məktəb binaları tikilmiş, sinif otaqları, fənn kabinetləri, laboratoriyalar, idman zalları müasir avadanlıqlarla təchiz edilərək şagirdlərin ixtiyarına verilmişdir.

Prezidentin "Biz neft kapitalını insan kapitalına çevirməliyik" tapşırığını təhsil işçiləri əməli fəaliyyətləri ilə həyata keçirir, dövrün tələbinə uyğun tədrisin keyfiyyətini yüksəltməklə təhsilimizin inkişafına layiqli töhfələr verirlər.

Ümummilli Liderimiz Heydər Əliyevin də qeyd etdiyi kimi, biz dərk etməliyik, anlamalıyıq ki, xoşbəxt bir mərhələyə gəlib çatmışıq, milli azadlığa nail olmuşuq, müstəqil dövlətimiz var, azad, müstəqil ölkədə yaşayırıq. Hər birimizin müqəddəs borcu müstəqil dövlətimizin qədrini bilmək, onu qorumaq, inkişaf etdirmək, dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə qaldırmaqdan ibarətdir. Ən əsas nailiyyət ondan ibarətdir ki, biz müstəqilliyimizi müdafiə etdik, qoruduq, möhkəmləndirdik, inkişaf etdirdik və müstəqilliyimizi əbədi etdik.

Prezident İlham Əliyevin Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması respublikamızda müstəqil dövlətçilik düşüncəsinin, azərbaycançılıq məfkurəsinin, vətənpərvərlik tərbiyəsinin daha da möhkəmləndirilməsinə özünün sanballı töhfələrini verir və verəcəkdir.

**Şəhla ƏLİYEVA,**
*pedaqogika üzrə elmlər doktoru, professor, ADPU-nun pedaqoji psixologiya kafedrasının müdiri, Əməkdar müəllim*

Mayın 3-də STEAM İnnovasiya Mərkəzində Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) maliyyə dəstəyi ilə həyata keçirilən "Müəllimlərin potensialının artırılması və Azərbaycan Respublikasının Təhsil Nazirliyi üçün təhsil informasiya sisteminin yaradılması" texniki yardım (qrant) layihəsi çərçivəsində təhvil-təslim mərasimi keçirilib. Tədbirdə elm və təhsil nazirinin müavini Həsən Həsənli, Koreya Respublikasının ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri Lee Eun Yong, Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov və digər rəsmilər iştirak ediblər.

# Təhsil işçilərinin peşəkar inkişafına dəstək

## Müəllimlərlə bağlı texniki yardım layihəsi yekunlaşıb





Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Həsən Həsənli Azərbaycan və Koreya arasında təhsil sahəsində əməkdaşlığın dinamik inkişafını vurğulayaraq iki ölkə arasında bu sahədə təcrübə mübadiləsinin aparılması baxımından layihənin əhəmiyyətini qeyd edib.

Müvafiq layihə çərçivəsində Koreya təcrübəsi üzrə Azərbaycan dilində müəllimlərin ixtisasartırma proqramının ilk milli elektron məzmunu hazırlandığını qeyd edən nazir müavini öyrədici təhsil resurslarının yaradılmasının zəruriliyini bildirib.

Koreya Respublikasının ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri Lee Eun Yong çıxışında adıçəkilən texniki yardım layihəsinin Koreya Respublikası və Azərbaycan arasında təhsil sahəsində uğurlu əməkdaşlığı əks etdirdiyini qeyd edib. Səfir Koreya Respublikasının təhsil sahəsində ölkəmizlə mövcud əməkdaşlığının daha da genişlənməsində maraqlı olduğunu vurğulayıb.

Daha sonra "Müəllimlərin potensialının artırılması və Azərbaycan Respublikasının Təhsil Nazirliyi üçün təhsil informasiya sisteminin yaradılması" texniki yardım layihəsinin rəhbəri İnseak Yoo layihənin komponentləri üzrə yekun hesabatla çıxış edib. İnseak Yoo layihənin 2019-2022-ci illəri əhatə etməsinin nəzərdə tutulduğuna baxmayaraq, COVID-19 pandemiyası səbəbindən 2023-cü ildə tamamlandığını diqqətə çatdırıb.

Sonda Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov, Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) Azərbaycan üzrə ofisinin rəhbəri Jong Hyun Moon və layihənin rəhbəri İnseak Yoo tərəfindən təhvil-təslim aktı imzalanıb. Tədbir iştirakçıları STEAM İnnovasiya Mərkəzində yaradılan Studiya Otağı ilə tanış olublar.

Qeyd edək ki, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) arasında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə "Müəllimlərin potensialının artırılması və Azərbaycan Respublikasının Təhsil Nazirliyi üçün təhsil informasiya sisteminin yaradılması"texniki yardım (qrant) layihəsi təsdiq edilib. Elm və Təhsil Nazirliyi tərəfindən layihənin icraçısı Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi (TSİİ), benefisiarı kimi TSİİ və Azərbaycan Respublikasının Təhsil İnstitutu çıxış ediblər.

Layihənin əsas məqsədi təhsil işçilərinin peşəkar inkişafına dəstək məqsədilə elektron öyrənmə portalının, təhsil məzmunlarının yaradılması üçün studiya otağının qurulması, Azərbaycan dilində milli elektron məzmunlarının yaradılması mexanizminin formalaşdırılması və nazirliyin informasiya sisteminin gücləndirilməsi olub.

**Lamiyə ƏLİMƏRDANOVA**

# Türkiyənin Qars Qafqaz Universitetinin rəhbərliyi Lənkəran Dövlət Universitetində

Türkiyənin Qars Qafqaz Universitetinin rektoru professor-doktor Hüsnü Kapu başda olmaqla, bu ali təhsil ocağının rəsmiləri Lənkəran Dövlət Universitetində (LDU) olublar. LDU-nun rektoru professor Natiq İbrahimov qonaqlarla görüşdə universitetin təhsil həyatı barədə ətraflı məlumat verib. Rektor son illərdə universitetin maddi-texniki bazasının yenilənməsi, yeni tədris korpuslarının tikintisi, mütəxəssis hazırlığının keyfiyyətcə yüksəldilməsi istiqamətində görülən işlərdən, perspektiv planlardan danışıb. Söhbət zamanı hər iki universitet arasında ikili diplom, tədris planlarının uyğunlaşdırılması, akademik mübadilə və əməkdaşlıq məsələlərinin digər aspektləri ətraflı müzakirə edilib, xatirə hədiyyələri təqdim olunub.



İşgüzar söhbətdən sonra rektor N.İbrahimov qonaqları universitetlə əyani tanış edib. Tələbə rəssamların əsərlərindən ibarət sərgi qonaqlarda xoş təəssürat yaradıb. Türkiyəli qonaqlar universitetin hər 3 tədris korpusunu gəzərək dərslərin gedişini əyani izləyib, həmçinin tələbə və müəllimlərlə fikir mübadiləsi aparıblar. N.İbrahimov türkiyəli qonaqları universitetin yardımçı təsərrüfatı və turizm tədris bazası ilə də yaxından tanış edib.

Universitetin böyük akt zalında keçirilən tədbirdə Qars Qafqaz Universitetinin rəsmiləri, LDU-nun professor-müəllim-tələbə heyəti iştirak edib. Rektor N.İbrahimov hər iki universitet arasında inkişaf etməkdə olan əlaqələrdən, bu istiqamətdə əldə olunan ilk müsbət nəticələrdən, gələcək perspektivlərdən danışıb. Bildirib ki, universitetin nümayəndə heyəti ötən il Qars Qafqaz Universitetində işgüzar səfərdə olub və yüksək səviyyəli görüşlər keçirib. Rektor xatırladıb ki, 2017-ci ildə hər iki universitet arasında imzalanan "Akademik Əməkdaşlıq Müqaviləsi"ndə universitetlərarası qarşılıqlı akademik əməkdaşlığın inkişaf etdirilməsi, baytarlıq sahəsində əlaqələrin genişləndirilməsi öz əksini tapıb.

Qars Qafqaz Universitetinin rektoru Hüsnü Kapu Lənkəran Dövlət Universitetinin professor-müəllim-tələbə heyətini salamlayaraq, LDU ilə tanışlıqdan məmnunluğunu dilə gətirib, universitetin zəngin maddi-texniki bazaya malik olduğunu, universitetlər arasında yaranmış əlaqələrin hər iki təhsil ocağı üçün faydalı olacağını deyib.

Sonda rektorlar tələbələri maraqlandıran sualları cavablandırıblar.

# "Ən yaxşı elmi məruzə" müsabiqəsi qaliblərinə mükafatlar verilib

Elm və Təhsil Nazirliyinin Aşqarlar Kimyası İnstitutunun Yeni Azərbaycan Partiyası Ərazi Təşkilatı və Gənc Alim və Mütəxəssislər Şurasının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilən gənc alim və mütəxəssislər arasında "Ən yaxşı elmi məruzə" müsabiqəsi qaliblərinin mükafatlandırılma mərasimi keçirilib.

Tədbirdə institutun baş direktoru akademik Vaqif Fərzəliyev giriş nitqi ilə çıxış edib, Ümummilli Liderin keçmiş SSRİ dövründə respublikaya rəhbərlik etdiyi zaman ölkəmizi durğunluq vəziyyətindən çıxararaq, qabaqcıl respublikalar sırasına daxil etməsindən danışıb. Akademik bildirib ki, tarixi şəxsiyyətin ikinci hakimiyyəti dövründə ölkəmiz 90-cı illərin əvvəllərində yenidən müstəqilliyini itirmək təhlükəsindən xilas olunub, düşdüyü siyasi və iqtisadi böhrandan qurtulub: "1993-cü ildə Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə respublikamızın ən çətin vaxtında hakimiyyətə qayıtdı, yenicə müstəqillik qazanmış, amma kövrək olan bir dövləti tənəzzüldən tərəqqiyə apardı, bununla da ölkədə ictimai-siyasi sabitlik, iqtisadi inkişaf, ordu quruculuğu təşəkkül tapdı. Daha sonra onun layiqli davamçısı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində erməni işğalına son qoyuldu və xalqımız qələbə sevinci yaşadı".

O, Ümummilli Lider Heydər Əliyevin ölkə həyatının bütün sahələrinə, o cümlədən elmə, təhsilə və mədəniyyətə böyük diqqət yetirdiyini, gənclərə hər bir sahədə böyük dəstək verdiyini söyləyib.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Bəxtiyar İslamov çıxış edərək bildirib ki, Ulu Öndər Heydər Əliyev kimi dünya miqyaslı dövlət xadimi, tarixi şəxsiyyətin məhz Azərbaycan xalqının qismətinə düşməsi böyük iftixar hissi yaradır:"Heydər Əliyevin xarici siyasəti müstəqil Azərbaycanı yaşatmaq, onu hərtərəfli inkişaf etdirmək, problemlərimizi həll etmək, xalqımızın dünya xalqları arasında özünəlayiq yer tutmasına nail olmaq məqsədi daşıyıb".

YAP İdarə Heyətinin üzvü, Aşqarlar Kimyası İnstitutunun icraçı direktoru kimya elmləri doktoru Əfsun Sucayev Ümummilli Lider Heydər Əliyevin keçdiyi böyük, mənalı və şərəfli həyat yolundan, fəaliyyətində doğma xalqına bağlılıq və təəssübkeşlik hisslərindən danışıb.

Ə.Sucayev institutda çalışan gənc alim və mütəxəssisləri daha yüksək səviyyəli elmi tədqiqatlara həvəsləndirmək üçün keçirilən müsabiqələrin artıq 10 ildir, ənənəvi hal aldığını və hər il Ümummilli Liderin anadan olduğu tarixə həsr edildiyini söyləyib. O, bu cür müsabiqələrin gənc tədqiqatçıların elmi məruzə etmək və məqalə yazmaq vərdişlərinə yiyələnmələrində mühüm rol oynadığını bildirib.

Daha sonra institutun Gənc Alim və Mütəxəssislər Şurasının sədri Günay İsmayılova çıxış edərək "Ən yaxşı elmi məruzə" müsabiqəsinin qaliblərinin seçimi zamanı ekspert dəyərləndirməsinin şəffaf aparıldığını vurğulayıb.

Beləliklə, Ekspertlər Komissiyasının qərarı ilə institutun kiçik elmi işçisi, I kurs doktorant Nərgiz Məcidi müsabiqənin I, kiçik elmi işçi, II kurs doktorant Lalə Əliyeva II, kiçik elmi işçi Mirəli İsakov isə III yerə və institutda istehsalat təcrübəsi keçən Azərbaycan Dövlət Neft və Sənaye Universiteti SABAH qruplarının tələbəsi Çinarə Zayıdova sertifikata layiq görülüblər.

# Tələbələr üçün SABAH qruplarının təqdimatı

Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) tələbələr üçün SABAH qruplarının təqdimatı keçirilib. Təqdimatda Elm və Təhsil Nazirliyinin SABAH qrupları İcra Komitəsinin rəhbəri Eldar Qocayev, ADPU-nun sosial və humanitar məsələlər üzrə prorektoru professor Fikrət Rzayev, SABAH İcra Komitəsi rəhbərinin tələbələrlə iş üzrə müavini Sevinc Əliyeva, ADPU SABAH Mərkəzinin rəhbəri dosent Lalə Mürsəlbəyova və BDU SABAH Mərkəzinin rəhbəri İradə Süleymanova iştirak ediblər.

Təqdimatla çıxış edən Eldar Qocayev SABAH konsepsiyası haqqında ətraflı məlumat verərək bildirib ki, bu layihə ali təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsi, ali təhsil sistemində yeni və fərqli mühitin yaradılması, savadlı, bacarıqlı və hazırlıqlı tələbə yetişdirilməsi, əmək bazarının artan tələblərinə cavab verən kadr hazırlığının təmin edilməsi məqsədilə yaradılıb. Təhsildə innovativ tədris metodlarının tətbiqi, təhsilalanların təşəbbüslərinin dəstəklənməsi və qabaqcıl təcrübənin tətbiqi, təhsilverənlərin inkişafı, stimullaşdırılması, akademik və biznes mühitlərinin əlaqələrinin genişləndirilməsi və inteqrasiyası proqramın əsas hədəflərindəndir.

SABAH qruplarının əhatə dairəsi və qəbul qaydaları haqqında məlumat verən İcra Komitəsinin rəhbəri vuğulayıb ki, hazırda proqram üzrə 10 dövlət ali təhsil müəssisəsində 38 ixtisas üzrə 2500-dən çox tələbənin təhsili ilə 650 nəfərdən çox professor-müəllim heyəti məşğul olur. Layihədən indiyədək 4600-dən çox istedadlı mütəxəssis məzun olub. SABAH qruplarına qəbul 3 mərhələdən ibarət olmaqla, müsabiqə yolu ilə aparılır. Müsabiqədə respublikanın istənilən ali təhsil müəssisəsində yalnız tələb olunan ixtisaslar üzrə bakalavr pilləsinin I kursunda əyani əsaslarla təhsil alan və orta akademik göstəricisi 61-dən yuxarı olan tələbələr iştirak edə bilərlər. Eyni zamanda layihə üzrə artıq "Təlim və tədrisin təşkili və metodikası" ixtisaslaşması üzrə SABAH magistratura proqramı da icra olunur, bakalavr səviyyəsində cari ildən 10 yeni ixtisas üzrə qəbul aparılması nəzərdə tutulur.

Təqdimatdan sonra müəllim və tələbələrin sualları cavablandırılıb.

# MDU Çində beynəlxalq forumda təmsil olunub



## Rektor "Davamlı inkişafda universitetlərin rolu: qlobal perspektivlər və əsas çağırışlar" mövzusunda məruzə ilə çıxış edib




Mingəçevir Dövlət Universitetinin (MDU) rektoru Şahin Bayramov Kəmər və Yol Universitetləri Alyansının (University Alliance of the Belt and Road - UAB&R) Forumunda iştirak edib. Çin Xalq Respublikasının Lanzhou Universiteti (Lanzhou University) və Qansu Əyalətinin Təhsil Departamentinin birgə təşkilatçılığı ilə keçirilən Foruma 14 ölkədən 60-a yaxın ali təhsil müəssisəsinin rəhbərləri qatılıb.

MDU-dan AZƏRTAC-a bildirilib ki, Forumda postpandemiya dövründə universitetlərin dayanıqlı inkişafı və beynəlxalq əməkdaşlığı, qlobal iqlim dəyişikliyi və ətraf mühitin qorunması, qloballaşma kontekstində universitetlər üçün çağırışlar və innovasiyalar, dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün ekosistem müxtəlifliyi və digər məsələlər barədə məruzələr dinlənilib və geniş müzakirələr aparılıb.

Ş.Bayramov Forumda "Davamlı inkişafda universitetlərin rolu: qlobal perspektivlər və əsas çağırışlar" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə dayanıqlı inkişaf əsaslı universitet modelinə transformasiyanın zəruriliyi və konseptual mahiyyəti diqqətə çatdırılıb, dayanıqlı inkişaf məqsədləri kontekstində universitetlər qarşısında duran başlıca vəzifələrdən bəhs edilib və MDU-nun müvafiq təcrübəsi paylaşılıb. Rektor əməkdaşlığa və dəstəyə görə Lanzhou Maliyyə və İqtisadiyyat Universitetinə (LUFE) təşəkkürünü bildirib və Forumun işinə uğurlar arzulayıb.

Qeyd edək ki, hazırda müasirləşmə mərhələsində olan MDU-da geniş coğrafiyaya, böyük elmi və akademik potensiala sahib və dayanıqlı inkişaf təşəbbüslərini dəstəkləyən UAB&R ilə əməkdaşlığa xüsusi önəm verilir. MDU 2020-ci ildən UAB&R-ın konfranslarında təmsil olunur və 2021-ci ilin 10 dekabr tarixində keçirilən konfrans çərçivəsində Əməkdaşlıq Memorandumunun imzalanması ilə Alyansa üzv qəbul edilib. Alyans çərçivəsində kadr hazırlığı, elmi-tədqiqat, yeni fənlərin yaradılması, akademik mübadilə, bilik və texnologiyaların mübadiləsi və digər sahələrdə əməkdaşlıq nəzərdə tutulub.

---

# AzTU "SKY Global Internship" Mübadilə Proqramında

Gənc mühəndislərin əmək bazarının tələbləri səviyyəsində hazırlanması məqsədilə texniki universitetlər, o cümlədən Azərbaycan Texniki Universiteti (AzTU) yeni layihələrə imza atır.

Belə ki, gənclərin praktiki biliklərinin inkişaf etdirilməsi məqsədilə AzTU 2022-ci ildən Türk Avrasiya və Kosmik Sənaye Şirkəti (TUSAŞ) ilə sıx əməkdaşlığa başlayıb.

Əməkdaşlıq çərçivəsində AzTU-nun Müdafiə Sənayesi İnstitutunun mütəxəssisi Nicat Bəkirli, Sosial İnkişaf Mərkəzinin baş mütəxəssisi, radioelektron və aerokosmik sistemlər kafedrasının assistenti Malik Əliyev, "Cihazqayırma texnologiyası" ixtisası üzrə doktorant Bibixanım Cabbarlı və "Maşın mühəndisliyi" ixtisası üzrə I kurs magistr tələbəsi Merac Abasquliyev 2-26 may 2023-cü il tarixlərində təşkil edilən "SKY Global Internship" Mübadilə Proqramında iştirak edir.

Proqram üzrə müasir təcrübənin ölkəmizdə inteqrasiyası, birgə imkanların artırılması məqsədilə Milli Aviasiya Akademiyasının əməkdaş və tələbələrinin təmsil olunduğu 6 nəfərlik dinləyici heyəti də AzTU-nun təşəbbüsü ilə "SKY Global Internship" Mübadilə Proqramında təmsil olunur.

Qeyd edək ki, TUSAŞ ilə qarşılıqlı razılaşmaya əsasən, təcrübə proqramlarında AzTU üçün ayrılan yer sayı 20 nəfərdir.

Bu istiqamətdə tələbələrin müəyyən edilməsi və seçimlərin təşkili AzTU-nun Universitet-Sənaye Əməkdaşlığı və Ömürboyu Təhsil Mərkəzi tərəfindən koordinasiya edilir.

Bu barədə AzTU-dan məlumat verilib.

---

# Direktor olmaq arzusunda olanlar üçün "Məktəb liderliyi"

Bir il əvvəl "Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Strateji inkişaf mərkəzilə birgə gələcəkdə dövlət ümumi təhsil müəssisələrində direktor vəzifəsində çalışmaq arzusunda olan pedaqoji kadrlar üçün "Məktəb liderliyi proqramı"na sənəd qəbulu elan edir" , - cümləsi ilə başlayan elan çoxlarının diqqətini çəkdi. Ancaq hər kəs qatıla bilməzdi, çünki proqrama, sadəcə ümumtəhsil müəssisələrində 5 il pedaqoji stajı olan ali təhsilli şəxslər müraciət edə bilir, elektron sənəd qəbulu, test imtahanı və müsahibədən ibarət üç mərhələni uğurla keçəndən sonra iştirak hüququ qazanırdı... Həmin proqram artıq başa çatıb və mayın 2-də keçirilən təntənəli bağlanış mərasimində ilk məzunlarına sertifikatları təqdim edilib.

## Proqram yekunlaşdıqdan sonra məzunlar arasında direktor olanların sayı 29.1 faiz artıb







### 145 liderlik saatından sonra

Əvvəla qeyd edək ki, müasir çağırışlara cavab verən məktəb liderlərinin hazırlanmasını hədəfləyən sözügedən proqram 5 modul üzrə 145 saatı əhatə edib. Direktorluğa həvəs göstərənlər məktəbin idarə olunması və liderlik, tədrisin təşkili və idarə edilməsi, təhsildə qiymətləndirmə, məktəbdə heyətin idarə edilməsi və məktəbdə ünsiyyətin təşkili və idarə edilməsi üzrə nəzəri və praktik bilik, bacarıqlar əldə ediblər. Özü də həftədə iki dəfə olmaqla cəmi 3 ay müddətində.

Proqram yekunlaşdıqdan sonra məzunlar arasında direktor olanların sayı 29.1 faiz (14 nəfər) artıb. Proqramı bitirən məzunlar direktor, direktor əvəzi, sektor müdiri, direktor müavini, müəllim vəzifələrində çalışırlar.



### "İşimizi daha səmərəli qurmaq baxımından bu proqramın töhfələri danılmazdır"

Bu yaxınlarda Suraxanıdakı Səməd Abdullayev adına 290 nömrəli tam orta məktəbə direktor təyin olunan Yeganə Abdullayeva o hüququ qazananlardan biri oldu: "Mən "Potensial məktəb direktorları" kursunun da müdavimi olmuşam. Həmin proqramın inkişafımda rolunu hiss etdiyim üçün bu proqrama da baş vurdum və bu gün müqayisə edərək əminliklə deyə bilərəm ki, məzmun baxımından çox böyük üstünlükləri olan "Məktəb liderliyi" proqramına yaxşı ki, qatılmışam. Proqrama qatıla bilmək üçün tələb edilən bütün mərhələlərdən uğurla keçdim. Müasir liderliyin sirlərini nəzəri və praktiki biliklərlə mənimsədim. Düşünürəm ki, proqram bildiklərimizi sistemləşdirmək, bilmədiklərimizi öyrənmək və təcrübə qazanmağımıza xidmət etdi. Hazırda 290 nömrəli tam orta məktəbin direktoru vəzifəsində çalışıram. Proqramda qazandığım dəyərlərin məktəbimizdə tətbiqinə başlamışam. İşimizi daha səmərəli qurmaq baxımından bu proqramın töhfələri danılmazdır. Ona görə də proqramın davamını arzulayıram. Hətta xarici ölkələrə səfərlər edərək təcrübə mübadiləsi aparmağın işimizə töhfəsi olacağını düşünürəm. Biliyin mütəmadi yenilənməsi üçün müvafiq platformaların yaradılmasının işimizdə müsbət nəticəsi ola biləcəyini düşünürəm".

### Maraqlı tərəflərlə düzgün kommunikasiya

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) rektoru professor Cəfər Cəfərov müasir çağırışlara cavab verən məktəb liderləri hazırlamaq məqsədilə çıxdıqları bu yolun uğurlu nəticələri olacağına inandığını vurğulayıb: "Məktəb lideri məktəbin bütün maraqlı tərəfləri ilə düzgün kommunikasiya qurmalıdır. XXI əsrin məktəb liderlərinin ərsəyə gəlməsində "Məktəb liderliyi" proqramı kimi layihələrin həyata keçirilməsinin böyük əhəmiyyəti var".

Cəfər Cəfərov gələcəyin məktəb liderlərinin hazırlanmasına töhfə verdikləri üçün məmnunluğunu ifadə edərək proqramın ilk məzunlarına uğurlar arzu edib.

### Yaxşını uzaqda axtarmayın!

Başkent Universitetinin Təhsil İnstitutunun direktoru, "Məktəb liderliyi" proqramında "Məktəb idarəetməsi və liderlik" modulunun müəllimi Servet Özdemir "liderlikdə bağlanış olmaz, liderlik öyrənməyə davam etməkdir", - deyərək təhsildə liderliyin önəmindən danışıb: "Liderlik fərq edilməkdir, icradır. Bu işin bitməyən bir yol olduğunu anlamaq gərəkdir".

S.Özdemir "Məktəb liderliyi" proqramının məzunlarına öz fərqliliklərini ortaya qoymağı, məktəbdə fərqlilikləri üzə çıxarmağı, öz məktəbimizi qurmağı tövsiyə edib: "Hər kəsin yaxşısı özünə. Corc Vaşinqton öz məktəbini qurub. Türkiyənin özünə görə ayrı "məktəb anlayışı" var. Ona görə də yaxşını uzaqda axtarmayın, ən yaxşılar aranızda var".

Sonda "Məktəb liderliyi" proqramını tədris edən müəllimlərə təşəkkür plaketləri, proqramın məzunlarına sertifikatlar təqdim edilib.

**Ruhiyyə DAŞSALAHLI**

---

# YTP-nin inkubator-rezidenti "Biznesdə qadınların gücü" layihəsində 1-ci yerin qalibi olub

Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkının (YTP) inkubator-rezidenti olan "SmFreshOil" brendinin sahibi, "ABAD"çı Maya Səbzəliyeva qadınların sahibkarlıq fəaliyyətinə təşviq olunması və onlara dəstək məqsədilə həyata keçirilən "Biznesdə qadınların gücü" layihəsində mükafata layiq görülüb.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və "Rabitəbank" ASC-nin birgə təşkilatçılığı, Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası və "Marsol Group"un tərəfdaşlığı ilə keçirilən müsabiqədə M.Səbzəliyeva 1-ci yerin qalibi olaraq 5000 manat pul mükafatına layiq görülüb. M.Səbzəliyevaya mükafat "SmFreshOil" brendinin inkişaf etdirilməsi üçün təqdim edilib.

Tədbir çərçivəsində qadın sahibkarların məhsullarından ibarət kiçik sərgi də təşkil olunub.

Qeyd edək ki, 2022-ci ilin noyabr ayından start götürmüş layihədə iştirak etmək üçün 134 qadın sahibkar müraciət edib. Onların arasından müvafiq meyarlara uyğun olan, sənaye, kənd təsərrüfatı, ticarət və xidmət sahələrində fəaliyyət göstərən 23 iştirakçı seçilib. Layihə müddətində qadın sahibkarlar biznes biliklərinin artırılması üçün 10-dək müxtəlif təlimlərə cəlb edilib, onlara məsləhət xidməti və mentor dəstəyi göstərilib.

# "TEKNOFEST-2023"-ün QALİBLƏRİ

**27** aprel - 1 may tarixlərində Türkiyə Respublikasının İstanbul şəhərində altıncı ildir təşkil edilən "TEKNOFEST-2023" Aerokosmik və Texnologiya Festivalı keçirilib. Beynəlxalq status daşıyan "TEKNOFEST" Türkiyənin kosmos, aviasiya, texnologiya sahələrində sürətli inkişafının göstəricisi olmaqla dünyada xüsusi marağa səbəb olub.

Aprelin 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirak etdiyi möhtəşəm festival mötəbərliliyi ilə yadda qalıb və iki qardaş ölkənin hər zaman birlikdə olmasını bir daha sübut edib.

"TEKNOFEST" çərçivəsində keçirilmiş müsabiqələrin qaliblərinin mükafatlandırılması mərasimi olub. Müsabiqənin qalibləri ilə xatirə şəkilləri çəkdirilib. "Kızılelma" pilotsuz uçuş aparatının səmada manevrləri izlənilib.

Qeyd edək ki, milli texnoloji həmlə konsepsiyası ilə texnologiya sahəsində sürətlə inkişaf edən builki "TEKNOFEST" festivalı Türkiyə Texnologiya Komandası Vəqfinin (T3 Vəqfi), Sənaye və Texnologiya Nazirliyinin birgə təşkilatçılığı, qardaş ölkənin milli texnoloji sistemində mühüm rol oynayan dövlət, özəl, elm və media qurumlarından ibarət 120-dək qurumun tərəfdaşlığı ilə keçirilib. İldən-ilə genişlənən "TEKNOFEST"də beş gün ərzində texnologiya, elm, aviasiya-pilotaj nümayişləri, sərgilər, konfranslar, texnoloji yarışlar, mükafatlandırma mərasimləri və digər tədbirlər təşkil olunub.

Festival çərçivəsində keçirilən texnoloji yarışlar öz arzularını reallığa çevirmək istəyən gənclərin layihələrinin təqdimatı üçün ideal platforma təklif edir. Məhz bunun nəticəsidir ki, bu möhtəşəm festivalın iştirakçılarının sayı ildən-ilə sürətlə artmaqdadır. Belə ki, "TEKNOFEST"in ilk dəfə təşkil olunduğu 2018-ci ildə tədbirə 4333 komanda və 20 min iştirakçı qatılmışdısa, bu il komandaların sayı 333 mindən, iştirakçıların sayı isə 1 milyondan çox olub. Builki "Texnoloji yarışlar"da 102 müxtəlif kateqoriya üzrə 41 yarış keçirilib.

Qürur hissi ilə bildiririk ki, "TEKNOFEST-2023" Aerokosmik və Texnologiya Festivalında iştirak edən Bakı Dövlət Universitetinin və Bakı Mühəndislik Universitetinin komandaları Vətənimizi layiqincə təmsil edərək yüksək nəticələr əldə ediblər.

Bakı Dövlət Universitetinin (BDU) "BSU Creativity Workz" komandası "Driver's Eye (avtomobil qəzalarını əvvəlcədən müəyyənləşdirərək sürücünü xəbərdar edən elektron sistem)" layihəsi ilə festivalda 1-ci yerə, "Humantek" komandası isə "Ağıllı damla sulama sistemi (torpağın mineral tərkibi, rütubət səviyyəsi, havanın temperaturu və təzyiqi kimi məlumatların toplanaraq mərkəzi stansiyaya naqilsiz ötürülməsi üçün əkin sahələrinin müxtəlif yerlərində günəş enerjisi ilə qidalanan kiçik stansiyalar)" layihəsi ilə 3-cü yerə layiq görülüb.

Bakı Mühəndislik Universitetinin (BMU) 5 tələbəsindən (Nadir Daşdıyev, Ayişə Xudiyeva, Rəhbər Əhmədov, Kamran Abdullazadə, Kənan Məmmədov) ibarət "RED X" komandası Türkiyədə keçirilən "TEKNOFEST-2023" Aerokosmik və Texnologiya Festivalınında "PUA-Pilotsuz Uçuş Aparatı" layihəsi ilə təmsil olunub. Universitetin mühəndislik fakültəsinin mexanika mühəndisliyi kafedrasının müəllimi Sahib Mütəllibovun mentorluğu, fakültənin laboratoriya müdiri Rüstəm Kələntərlinin texniki dəstəyi ilə tələbələrin hazırladıqları hərbi məqsədli tibbi ləvazimat daşıya bilən, kuryer vəzifəsini yerinə yetirə və bənzər yerlərdə əlverişliliyini göstərə bilən sabit qanadlı, sadə və ergonomik PUA aprel ayının sonu Türkiyədə sınaq uçuşu həyata keçirildikdən sonra aprelin 27-dən mayın 1-dək İstanbulda keçiriləcən festivalda nümayiş olunub və 4-cü yerə layiq görülüb.

Qalibiyyətlə Vətənə yenicə dönən "TEKNOFEST-2023" iştirakçılarımızın sevincinə şərik olaraq onların təəssüratları ilə tanış olduq. Bu xoş hissləri oxucularımızla da bölüşürük:

## Arzularını reallığa çevirən Azərbaycan gənclərinin uğur hekayələri

### "Birlikdə layihələr hazırlamaq haqqında gələcək planları qururuq"

*İlyas Nəsibov, BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin direktoru:* "BDU-da 2022-ci ildə Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi yaradıldıqdan sonra biz tələbələrdən ibarət komandalar formalaşdıraraq Azərbaycanda keçirilən "TEKNOFEST" festivalına qatıldıq və 3 komandamız qalib oldu. Daha sonra biz "TEKNOFEST" Karadeniz və Samsunda Azərbaycan pavilyonunda iştirak etdik və qalib layihələrimizi təqdim etdik. "TEKNOFEST-2023" festivalında isə BDU 4 komanda və 6 layihə ilə təmsil olundu. Kapitanı olduğum "BSU Creativity Workz" komandası tərəfindən toplamda təqdim olunan 3 layihə final mərhələsinə vəsiqə qazandı: 2 layihəmiz Çevrə və enerji kateqoriyası üzrə, 1 layihəmiz isə Ağıllı nəqliyyat texnologiyaları kateqoriyası üzrə. Bu, Azərbaycan üçün bu il bir rekord idi.

Bizim qalib olduğumuz kateqoriyada qatılan komandaların sayı 24600 idi. Biz ilk növbədə 109 komanda arasında ən yüksək balla birincilik qazanaraq finala keçdik. Daha sonra final mərhələsində bu komandalar ələnərək 25-ə endi. Final mərhələsində isə biz münsiflər heyətinin rəğbətini qazanaraq 1-ci yerə layiq görüldük, qızıl medal alaraq qalib olduq. 1-ci yerə layiq görülən layihəmizin adı "Driver's Eye", yəni süni intellektə əsaslanan qəza təxmin texnologiyası olaraq hazırlanmışdır. Bu, avtomobilə əlavə edilə bilən bir sistem olaraq yolda baş verə biləcək qəzaları, sürücülər üçün olan kor nöqtələri, yol kəsişmələrindəki təhlükələri, piyadaları süni intellekt əsasında kameralar vasitəsilə müəyyənləşdirərək həm avtomobilin sürücüsünü, həm də şüşədə yerləşdirilən ekran sayəsində arxadan gələn sürücüləri də hər hansı təhlükə ilə bağlı xəbərdar edə bilən bir sistem olaraq inkişaf etdirilmişdir.



Fiziki yorğunluğa, güclü və təcrübəli, uğurlu rəqiblərə baxmayaraq festivaldan çox gözəl təəssüratlarla qayıtmışıq. "TEKNOFEST-2023"-də Türkiyənin Yıldız Teknik Universiteti, ODTÜ, Qazi və s. öndə gələn universitetlərini təmsil edən, müxtəlif kateqoriyalar üzrə 96 ölkədən gələn güclü komandalar yarışırdı. Buna baxmayaraq, biz onların arasından sıyrılaraq birinci ola bildik. Biz qalib olduqdan sonra həmin rəqib komandaların üzvləri də bizi təbrik etdilər, bizim layihəmizin müxtəlif xüsusiyyətlərinin onlarınkından yaxşı olduğunu vurğuladılar. Onlar bizə müxtəlif texnoloji layihələri ortaq hazırlamağı, inkişaf etdirməyi təklif etdilər. Biz də onların hər birini Vətənimizə, Bakı Dövlət Universitetinə dəvət etdik. Artıq biz onlarla ünsiyyətdəyik və birlikdə layihələr hazırlamaq haqqında gələcək planları qururuq".

### "İki dövlət, bir millət və bir yumruq!" şüarı bizim üçün çox güclü bir motivasiya qaynağı oldu"

*Rəvanə Sadıxlı, BDU-nun Elmi-təşkilati şöbəsinin mütəxəssisi:* "Mən BDU-nun əməkdaşı və eyni zamanda "BSU Creativity Workz" komandasının üzvüyəm. Biz komanda olaraq "TEKNOFEST-2023" festivalının final mərhələsinə 3 layihəmizlə vəsiqə qazandıq."Driver's Eye (avtomobil qəzalarını əvvəlcədən müəyyənləşdirərək sürücünü xəbərdar edən elektron sistem)" layihəmiz 1-ci yerə layiq görüldü. Bildirmək istəyirəm ki, festivalla bağlı çox yüksək təəssüratlara sahibik. Biz yalnız komanda olaraq orada çıxış etmirdik, Azərbaycan gəncliyini təmsil etdiyimizi hiss edirdik. Xüsusilə cənab Prezident İlham Əliyevin çıxışı və çıxışında qeyd etdiyi "İki dövlət, bir millət və bir yumruq!" şüarı bizim üçün çox güclü bir motivasiya qaynağı oldu. Məhz bunun sayəsində biz münsiflər heyəti qarşısında çox dolğun və vətənpərvər ruhla çıxış etdik. Düşünürəm ki, bu da bizim təqdimatımıza faydasını verdi".



### "Bakı Dövlət Universiteti adından iki qalib komanda ilə ölkəmizə qayıtmaq bizim üçün böyük bir qürurdur"

*Jalə Heydərli, BDU-nun fizika fakültəsinin IV kurs tələbəsi:* "Mən "Humantek" komandasının tədqiqatçısıyam. "TEKNOFEST-2023" festivalında Azərbaycanı təmsil edib qalib olaraq qayıtdığımız üçün çox sevinirəm. Xüsusən də Azərbaycan universitetləri üzrə bu beynəlxalq yarışda Bakı Dövlət Universiteti adından iki qalib komanda ilə ölkəmizə qayıtmaq bizim üçün böyük bir qürurdur. Layihəmiz haqqında ətraflı məlumat verməmişdən əvvəl bu layihəyə haradan yola çıxdığımız haqqında danışmaq istəyirəm. Hesablamalara əsasən şirin su ehtiyatlarında ciddi şəkildə azalmalar müşahidə edilir. Şirin suyun ən çox israf edildiyi sahələr aqrar və sənaye sahələridir. Təəssüf ki, elm nə qədər inkişaf etsə də bu problemə suya qənaət etməkdən başqa həll yolu tapılmayıb. Aqrar sahədə suya qənaət etməyin ən yaxşı üsulu bizim hazırladığımız bu cihazı əkin sahələrində tətbiq etməkdir. Hazırladığımız "Ağıllı damla sulama sistemi" bir mərkəz və ərazinin böyüklüyündən asılı olaraq 6-ya qədər sahə stansiyasından ibarət sistemdir. Sahə stansiyalarına quraşdırdığımız nəm sensorunu torpağa yerləşdirməklə torpağın nəmliliyi və hava temperaturuna bağlı olaraq yalnız ehtiyac olduğu zamanlarda sulama prosesi həyata keçirərək suya qənaət etmək mümkündür. Bu layihəmiz Türkiyədə ciddi marağa səbəb oldu. Stendimizə yaxınlaşan hər kəs cihazın necə önəmli və hər kəs üçün əlçatan olduğunu vurğuladı. Hətta bəzi bu işlə məşğul olan vətəndaşlar cihazı necə əldə edəcəkləri barədə bizdən məlumat aldılar.




Biz düşünürük ki, qısa zaman ərzində cihazımızı patentləşdirə bilərik, yəni satış üçün hazır vəziyyətə gətirməyi düşünürük. Sonda vurğulamaq istərdim ki, su ehtiyatlarının tükənməsi nəinki Azərbaycan, bütün dünya üçün çox ciddi problemdir və biz bu problemin həll yolu üçün maksimum şəkildə çalışmalıyıq. Bütün əkinçilərin də bu cihazı öz sahələrində istifadə edə bilmələri üçün maksimum dərəcədə layihəni genişləndirməliyik".

### "Biz yeni-yeni layihələr ərsəyə gətirəcəyik, Vətənimiz üçün uğurlu nailiyyətlər bəxş edəcəyik"

*Nadir Daşdıyev, BMU-nun "Elektrik və elektronika mühəndisliyi" ixtisası üzrə II kurs tələbəsi:* "Mən 16 yaşında Bakı Mühəndislik Universitetinə daxil olmuşam. I kursda oxuyarkən Azərbaycanda keçirilən "TEKNOFEST" festivalında "RED" adlanan komandamız Robototexnika kateqoriyası üzrə 1-ci yerin qalibi olmuşdu. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan, Nobel mükafatı laureatı professor Əziz Səncər bizi mükafatlarla təltif etmişdilər. Bu il isə II kursda Dron texnikası üzrə yeni "RED X" komandasını qurdum. Komandamız "TEKNOFEST-2023" festivalına qatılmaq üçün qeydiyyatdan keçdi. 2700 komandadan 120 komanda finala qaldı və həmin 120 komandanın içərisindən bizim komandamız Bursaya vəsiqə qazandı.

"TEKNOFEST-2023" festivalında biz yeganə Azərbaycan komandası idik ki, hərbi məqsədli "PUA-Pilotsuz Uçuş Aparatı" layihəsi ilə qatılmışdıq.Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar, Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurasının (TÜBİTAK) prezidenti Hasan Mandal layihəmizlə yaxından tanış oldular. Hasan Mandal bizim layihəmiz olan PUA-nı imzaladı, bizimlə səmimi söhbət etdi, hər zaman bizə dəstək olacağını dedi. Hazırladığımız hərbi məqsədli tibbi ləvazimat daşıya bilən, kuryer vəzifəsini yerinə yetirə və bənzər yerlərdə əlverişliliyini göstərə bilən sabit qanadlı, sadə və erqonomik PUA Bursa şəhərindəki sınaq uçuşlarından sonra aprelin 27-dən mayın 1-dək İstanbulda keçirilən festivalda nümayiş olundu. Komandamız 4-cü yerə layiq görüldü. Qeyd etmək istərdim ki, orada daha ağır çəkili PUA-lar havaya buraxılırdı. Bizim PUA-nın isə cəmi 900 qram çəkisi olmasına baxmayaraq küləkli havada belə manevr edirdi, bu da münsiflər heyətinin və iştirakçıların heyrətinə səbəb olmuşdu. Biz hazırladığımız PUA-ya qırıcılarda istifadə edilən cihazlar yerləşdirmişik, buna görə də layihəmiz istənilən hava şəraitində uğurla uçuş həyata keçirməyə qadirdir. "TEKNOFEST-2023" festivalında çox maraqlı layihələrlə tanış olduq. Bu festivalda iştirak bizə böyük təcrübə qazandırdı. Çox ümid edirik ki, bu təcrübəyə əsaslanaraq biz yeni-yeni layihələr ərsəyə gətirəcəyik, Vətənimiz üçün uğurlu nailiyyətlər bəxş edəcəyik".



### "Zəruri sərmayə + fədakar mentorlar + çalışqan tələbələr = yüksək nəticə"

*AişəXudiyeva, BMU-nun "Mexanika mühəndisliyi" ixtisası üzrə III kurs tələbəsi:* "Mənim "TEKNOFEST-2023" festivalında iştirakımla bağlı ən gözəl təəssüratlarım ondan ibarətdir ki, dünyanın dörd bir tərəfindən gələn komandalar arasında final mərhələsinə yüksəlməyimizlə Azərbaycanımıza və doğma universitetimizə bir qürür gətirmiş olduq. Festival boyunca əsas ruhun gənc mühəndislərin müasir texnoloji bilgiləri bir-biri ilə paylaşma üzərində əsaslanmış yarış olduğunu gördük. Bir sözlə, bu yarışmanın digər yarışmalardan əsas fərqi rəqib komanda anlayışının olmaması idi. Əldə etdiyimiz yüksək nailiyyətə əsasən, mexanika laboratoriyasının müdiri, eyni zamanda yarışma boyunca bizə rəhbərlik edən müəllimimiz Rüstəm Kələntərovun söylədiyi bir düstur bizi bir daha yəqin etdi ki, Azərbaycan tələbəsi yüksək nəticələrə çata bilər. Düstur isə belədir: "Zəruri sərmayə + fədakar mentorlar + çalışqan tələbələr = yüksək nəticə".



### "Azərbaycan gənci hər zaman böyük qalibiyyətlər əldə etməyə qadirdir"

*Rəhbər Əhmədov, BMU-nun "Mexanika mühəndisliyi" ixtisası üzrə III kurs tələbəsi:* "Rəqabətin texnologiya və dostluqla harmoniya təşkil etdiyi dünyanın ən böyük texnoloji festivalı olan "TEKNOFEST-2023"-də iştirak etmək çox özəl və əvəzolunmaz bir hiss idi. Finalda yarışmanın özü belə mənə böyük bir həyəcan və sevinc yaşatdı. Digər komandalarla qurulan yoldaşlıqlar, hər çətinliyə rəğmən həyata keçirilməyə çalışılan layihələr, yüksək vəzifəli şəxslərin göstərdikləri sadəlik, nəzakət və qayğı "TEKNOFEST"-i unudulmaz edən xüsusiyyətlərdən bir neçəsidir. Bütün qeyri-mümkünlərə baxmayaraq bu yerə gəlməklə ifadə edilməyəcək sevinc hissi yaşadıq. Biz bir daha sübut etdik ki, yüksək potensiala malik Azərbaycan gənci hər zaman böyük qalibiyyətlər əldə etməyə qadirdir".



**Lamiyə ƏLİMƏRDANOVA**

# "Gənc Qızların Təhsilinə Dəstək"



## Layihə çərçivəsində tələbə qızlarla növbəti görüş

Təhsilin İnkişafı Fondu və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə həyata keçirdiyi "Gənc Qızların Təhsilinə Dəstək" layihəsi çərçivəsində tələbə qızlar ilə növbəti görüş keçirilib.

Tələbə qızlarla hər görüşdə onların təhsilə, öyrənməyə və şəxsi inkişafa nə qədər böyük maraq göstərdiklərinin şahidi oluruq. Bütün bunları nəzərə alaraq, TİF layihədə iştirak edən qızlar üçün motivasiya görüşləri, peşəkar təlim və seminarlar təşkil edəcəkdir.

Fond qızların yalnız təhsili deyil, eləcə də onların şəxsi və karyera inkişafı üçün məsləhət və dəstək xidmətlərini də nəzərdə tutur.

# "Azərbaycan məktəbi" BDU-nun kollektivi ilə görüş keçirib

"Azərbaycan məktəbi" jurnalının kollektivi mayın 2-də Bakı Dövlət Universitetinin professor-müəllim heyəti ilə görüş keçirib. Tədbirdə Universitetin Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin Magistratura və doktorantura şöbəsinin müdiri Mirnamik Bəşirov, Elmi Fəaliyyətin Təşkili və İnnovasiyalar Mərkəzinin Texnologiyaların transferi və innovasiyalar şöbəsinin müdiri Əfsanə Surxaylı, Bakı Dövlət Universitetinin nəzdində Beynəlxalq Elmi Araşdırma Mərkəzinin elmi katibi, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru Söhrab Ağamalıyev, Üzvi kimya kafedrasının müdir müavini, kimya elmləri doktoru Namiq Şıxəliyev, humanitar yönümlü 16 fakültənin magistr və doktorantları iştirak ediblər.



Tədbiri universitetin Magistratura və doktorantura şöbəsinin müdiri, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru, dosent Mirnamik Bəşirov açaraq jurnalın redaksiya heyətini tədbir iştirakçılarına təqdim edib. Baş redaktor Arzu Soltan 100 ilə yaxın yaşı olan "Azərbaycan məktəbi" jurnalı haqqında ətraflı məlumat verib, onun keçdiyi tarixi yoldan danışıb. Tədbir iştirakçılarını burada çap olunan məqalələrin mövzu istiqamətləri, məqalələrə qoyulan tələblərlə tanış edib. Baş redaktor müavini Nəsrəddin Musayev jurnalın təhsilin bütün pillələrində müəllimlərin yol yoldaşı olmaqla, onları dünyada mövcud müasir meyillərlə tanış etməsindən, burada çap olunan müəlliflər və onların Azərbaycan təhsilinin inkişafına verdiyi töhfələrdən bəhs edib.

Tədbirdə Universitetin Magistratura və doktorantura şöbəsinin müdiri Mirnamiq Bəşirov, Mükəmməllik Mərkəzinin əməkdaşı Söhrab Ağamalıyev, kimya fakültəsinin müəllimi Namiq Şıxəliyev, magistrantlar və doktorantların jurnalla bağlı sualları cavablandırılıb, müzakirələr aparılıb.

Tədbirdən sonra tələbələrlə söhbət zamanı jurnalistika fakültəsinin magistrantları xüsusilə fəallıq nümayiş etdirərək jurnalla sıx əməkdaşlıq etmək istədiklərini bildiriblər.

# Tacikistanda 2023-2024-cü tədris ili üzrə təhsil imkanı

2023-2024-cü tədris ili üzrə Azərbaycan vətəndaşları üçün elan edilən Tacikistanda təhsil təqaüd proqramına müraciətlərin qəbulu davam edir.

Təqaüd proqramına müraciət üçün son tarix 30 may 2023-cü il nəzərdə tutulub.

Bakalavriat, magistratura və doktorantura pillələri üzrə elan edilən təqaüd proqramının tədris dili rus və ingilis dilləridir.

Qeyd edək ki, təqaüd proqramı barədə ətraflı məlumatı elan *(https://htp.edu.az/uploads/fileuploads/2023/04/df4cca40223a476aaea73eb71a8820c1.pdf)* vasitəsilə əldə edə bilərsiniz.



## Azərbaycan Dillər Universiteti - 75

Ali məktəbdə kadr hazırlığı cəmiyyəti narahat edən məsələlərdən biridir. Kadr hazırlığının səviyyəsi ilə elmi-texniki tərəqqi arasında keyfiyyət fərqi cəmiyyəti günün bu vəzifəsi ətrafında toparlanmağa təhrik edir. Qeyd etmək istərdim ki, bu hal bütün ölkələr və dövlətlərə xas olan amildir. ADU-da ali təhsil sistemində əhəmiyyətli dönüşə nail olmaq üçün səylər və qüvvələr Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində kafedralar və laboratoriyalarda aparılan planlı, məqsədyönlü fəaliyyət ilə cəhdlər artırılıb. Koordinasiya olunmuş pedaqoji rəftarların icrası auditoriyalarda təlim paradiqmasından irəli gələn bilik, bacarıq və vərdişə yiyələnməyi deyil, təhsil paradiqması əsasında bilik, bacarıq, yaradıcılıq, ünsiyyət və ya bilik, bacarıq, kompetensiya və istək formuluna yiyələnməyi ehtiva edir.

# ADU-da kadr hazırlığının sosial-psixoloji xüsusiyyətləri



**Misgər MƏMMƏDOV,**
*Əməkdar mədəniyyət işçisi*

Təhsil paradiqmasında icra olunan istiqamətlər, həmçinin Avropa Təhsil məkanına inteqrasiya edən ölkələr üçün Avropa Şurası tərəfindən nəzərdə tutulan 1996, 1999, 2001-ci il proqramlarına uyğundur. Bu gün ADU-nun kafedralarında, Universitetdə təşkil olunmuş elmi seminarlarda, "dəyirmi masa"larda bu vəzifələrin icrasının linqvodidaktik üsullarının axtarışı, tətbiqi, icra üsulları ilə bağlı ciddi müzakirələr aparılır.

Universitet rəhbərliyi tərəfindən koordinasiya edilən təhsil paradiqmasının formaların mənimsənilməsi, icrası ilə bağlı rektoryanı şuralarda, Elmi Şurada, kafedra iclaslarında, kiçik elmi şurada problemin incələnməsi detallarına qədər pedaqoji heyətə çatdırılır.

Universitet rəhbərliyinin şəxsi təşəbbüsü ilə bu proseslərin inkişafı, metodik tövsiyələrin hazırlanması və onların həyata keçirilməsi üçün işlək mexanizmlərin hazırlanması istiqamətində axtarışlar aparılır. Pilot layihələr və ona müvafiq pedaqoji proyektlər dəyərləndirilir və auditoriyaya daxil edilir.

Təhsil sahəsində Dövlət Strategiyasının və Dövlət Proqramının həyata keçirilməsindən irəli gələn pedaqoji meyillərin icrası ADU-da 3 səviyyədə həyata keçirilir: 1)Laboratoriyaların köməyi ilə; 2)Kafedraların iştirakı ilə; 3)Universitet səviyyəli elmi seminarların, "dəyirmi masa"ların və seminar-müzakirələrin elmi istiqamətləndirici rolu ilə.

Yuxarıda qeyd etdiyimiz kimi, auditoriyalarda linqvodidaktik məqsədlərə nail olmaq üçün həm hüquqi-normativ sənədləri, həm də müəllim-tələbə münasibətlərində tələbə şəxsiyyətini formalaşdırmaq mühüm əhəmiyyət kəsb edir. Qeyd etdiyimiz 3 səviyyə, həm də kadr hazırlığında ixtisas və peşə istiqamətinin sosial-psixoloji xüsusiyyətlərinə yiyələnməyi, gənc kadrın şüurunun, əqidəsinin, dünyagörüşünün formalaşmasını auditoriyalarda pedaqoji kollektiv yerinə yetirməsini ehtiva edir.

ADU-da yaradılmış Azərbaycanşünaslıq, Multikulturalizm laboratoriyaları son 5 ildə keçirdikləri tədbirlərdə əqidə və dünyagörüşün formalaşmasında müzakirə olunan mövzuların azərbaycançılıq, dövlətçilik, dövlətə sədaqət, vətəndaşlıq və vətənpərvərlik, torpağa, dövlətə, millətə sevgi ruhu əsas prioritet olmuşdur. Bu laboratoriya vasitəsi ilə müəllim və tələbələrin qarşılıqlı iştirakı gələcək mütəxəssisin şüurun informasiya dayaqlarının ən emosional qatını təşkil etmişdir və edir. Seminar, "dəyirmi masa"larda tələbələrin iştirakının təmin olunması, bəzən təşəbbüsün təşkiledicisinə çevrilməsi gələcək mütəxəssislərin sosial şüurunun formalaşmasını motivləşdirir. Laboratoriyanın təşkil etdiyi tədbirlər şəxsiyyətlərarası münasibətlərin həm sosial, həm də konkret pedaqoji təfəkküründə qarşılıqlı münasibətlərin dinamik törəməsi kimi yaddaşlarda təkrar olunur.

Məlum olduğu kimi, gənc kadrların müasir tələblərə cavab verməsi elmi-texniki tərəqqinin tələbatlarından asılıdır. Sürətli rəqəmsal inkişaf, insan morfologiyasının informasiyanın təsiri ilə dəyişməsi ətraf aləmə baxışlarda tələbə təfəkkürünə təsir edən amillərdəndir.

ADU-da yaradılmış laboratoriyalarda keçirilən tədbirlər hətta dərsliklərin və dərs vəsaitlərinin inikas etdirməsindəki gecikmələr, laboratoriyaların dinamizmi və plastikliyi ilə aradan qaldırılır. Ətraf aləmdə baş verən hadisələr laboratoriyalarda, "dəyirmi masa"larda və seminarlarda müzakirə olunaraq, rəy bildirilərək, dövlətin mövqeyi nəzərə alınaraq qiymətləndirilir. Müəllim və tələbələrin sosial şüurun emosional halətləri zamanı uyğun qiymətləndirilməsi yolunda cəhdlər davam etdirilir.

Auditoriyada, auditoriyadan kənar, ictimai birliklərdə sosial şüurun formalaşmasının çoxlu emosional təsir dairələri var ki, bunlardan biri də multikulturalizm laboratoriyasıdır.

Bir neçə il bundan öncə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan brendi elan etdiyi multikulturalizmlə bağlı ADU-nun keçirdiyi beynəlxalq tədbir Avro-Asiyadan 11 dövləti və 15 Universiteti əhatə etmişdi. Bu beynəlxalq tədbir zaman etibarı ilə 365 günü, məkan etibarı ilə Çindən tutmuş Serbiyaya qədər sosial həyatı məşğul etmişdi, Azərbaycan dəyərləri, mədəniyyət, elm, təhsil müstəvisində milyonların hafizələrində təkrarlanmışdır.

Sosial şüurun formalaşmasında mədəniyyətlərin qarşılıqlı təsiri müasir Avropada inteqrasiyanın əsas tələblərindən biridir. Mədəniyyət amilinin pedaqoji prosesdə prioritet olaraq nəzərdə tutulması, bunun sayəsində xarici dilə yiyələnmək və Avropa mədəniyyətilə inteqrasiyası Avropa Şurasının təhsil haqqında sənədlərində öz əksini tapıb. ADU bu sahədə məqsədyönümlü fəaliyyət göstərir, belə ki, mədəniyyətlərarası kommunikativ kompetensiyaya yiyələnmək təhsil sahəsində Avropaya inteqrasiyasının istəklərindən biridir.

"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyin artırılması üzrə Dövlət Proqramı"nın ruhu səriştəliliyi həmçinin xarici dilin tədrisi prosesində icrasını nəzərdə tutur və konkret olaraq kommunikativ kompetensiya kimi pedaqoji prosesə daxil edilib. Kommunikativ kompetensiya 2013-cü ildə təsdiq olunmuş Dövlət Strategiyasının xarici dil tədris olunan ali məktəblərdə əsas vəzifələrdən biridir. Avropa Şurasının Təhsil islahatı ilə bağlı sənədlərdə ünsiyyətə səriştəlilik xarici dilin tədrisini ehtiva etməklə, həm də zəruri bir qabiliyyətin tələbələr arasında inkişafını nəzərdə tutur. Sosial şüurun ünsiyyət qatına yiyələnməyi ehtiva edən səriştəlilik təkcə psixoloji qabiliyyət deyil, həm də peşə hazırlığını gündən-günə təkmilləşdirən Universitet üçün tələbələrə aşılanan çətin situasiyalardan çıxış yolunun tapılmasında istiqamətlənmiş cəhdidir. Dövlət sənədlərində konturları müəyyən edilmiş bu qabiliyyətin aşılanması, onun tələbənin təfəkkürünün emalına çevrilməsi yolunda ADU-nun ixtisas və peşə kafedralarında məqsəd olaraq həyata keçirilir.

ADU-da bu sahədə həm dilçilik, həm də linqvo-didaktik sahədə tədqiqatlar aparılıb, elmi məqalələr Avropa və Asiya məkanında çap olunub, dissertasiyalar müdafiə edilib, multikulturalizmə aid dərslik, dərs vəsaitləri çap olunub. Multikulturalizm laboratoriyasının və onunla birgə çalışan kafedraların elmi-tədqiqat istiqamətləri, dərslik və dərs vəsaitləri gənc kadrların sosial şüurunun davranış formasına səbəb olur və bu ADU-nun auditoriyalarında çox cidd-cəhdlə tədris olunur. Mədəniyyətin təlim obyekti kimi tədris prosesinə daxil edilməsi Universitetdə mədəni-təhsil situasiyasının yaranmasına səbəb olur. Hər iki laboratoriyanın sosial şüurun formalaşmasında təşəbbüsləri Azərbaycanın görkəmli elm və sənət adamları ilə pedaqoji kollektiv və tələbələrə emosional görüşləridir, bu prosesin gənc mütəxəssisin gələcək həyatında necə böyük rol oynadığı ictimai fikir adamlarına bəllidir.

ADU-nun fəaliyyətdə olan qurumları bir ümumi istiqamət əsasında formalaşmışlar: tələbəyönümlü təhsilin perspektivlərini formalaşdırmaq, tələbə şəxsiyyətini cəmiyyətin tələbatlarına yönəltmək, kadr hazırlığının rəqəmsal əsrin istəklərinə uyğunlaşdırmaq müstəvisində təlim fəaliyyətini qurmaq.

Sosial şüurun formalaşmasına təsir edən daha maraqlı bir məqam Universitetin hesabına tələbələrin elmi-bədii ədəbiyyatın-tələbənin oxumağı şərti ilə pulsuz paylanmasıdır. Hamı bilir ki, şüur - biliyin məcmusudur, bilik şüurun birinci xarakteristikasıdır. Universitet rəhbərliyi bu prosesdə tələbəyə qabaqqarşı gəlib, onun biliyə yiyələnməsi üçün yataqxanada, tədris korpuslarında, koridorlarda təşkil etdiyi kitabxanalarla yanaşı tələbəyə evində kitabxana yaratmağa, şüurunu zənginləşdirməyə, kadr kimi yetişməyə həm maliyyə, həm də mənəvi dəstək olmuşdur.

Qeyd etmək istərdim ki, tələbənin şüurun formalaşmasında ADU-da təhsil məkanı kifayət qədər mükəmməldir.

Gələcək mütəxəssislərin ixtisas və peşə şüurunun formalaşmasında Universitetin rektoru şəxsən tələbələrin sosial təşəbbüslərinə, dövlət əhəmiyyətli tədbirlərin keçirilməsində iştiraklarına, 44 günlük Vətən müharibəsi ilə bağlı keçirilən tədbirlərdə, Ümummilli Lider Heydər Əliyevin anım və ad günlərində bu irsin mənimsənilməsində tələbənin sosial fəallığına xüsusi önəm verir. Tələbə çıxışları stimullaşdırılır, mükafatlandırılır, onlar pedaqoji prosesin idarə olunmasında vəzifələrə cəlb edilir. Tələbə şəxsiyyət olaraq Universitet həyatında özünü təsbit etmiş olur, ona səbəb isə Universitetdə yaradılmış sağlam əhvali-ruhiyyədir, informasiya və müəllim-tələbə qarşılıqlı münasibətlərinə istiqamətlənmiş məqsədli təhsil müstəvisidir.

Rəqəmsal təfəkkürə və informasiyanın təsiri ilə morfologiyası dəyişmiş gənc insan auditoriyada tələbatlarının çoxfunksiyalılığı ilə fərqləndiyi ADU-nun professor-müəllim heyəti üçün reallıqdır. Bu qrup tələbələrlə iş Universitet rəhbərliyindən həddən artıq səy tələb edən dinamik davranış forması tələb edir, ona görə də tələbənin şəxsiyyətlərarası münasibətlərinin perspektivlərini müəyyənləşdirmək müvafiq strukturların vəzifə borcu olması Elmi Şuranın qərarlarında öz əksini tapır.

Son olaraq qeyd etmək istərdik ki, ADU-da gələcək peşə sahiblərinin də dinamizm, mobillik, tolerantlıq, təşəbbüskarlıq və yeniliyə hazırlıq kimi şəxsi keyfiyyətlərin aşılanması bilik, bacarıq, yaradıcı fəallıq və istək üzərində formalaşdırılması prosesində məqsədəuyğun pedaqoji fəaliyyət həyata keçirilir. Universitetin tədris-təlim fəaliyyəti cəmiyyətin tələblərinə uyğun peşə və məqsədlərini həyata keçirmək üçün tələbələrin şüurunda zəmin hazırlayır.

Məlum olduğu kimi, Dünya Universitetləri Reytinqi QS sahələri üzrə reytinqini (Subject Rankings 2023) açıqlayıb və yuxarıda qeyd edilən pedaqoji davranışların müvəffəq həllinə görə Azərbaycan Dillər Universiteti müasir dillər bölməsi üzrə 1500 təhsil müəssisəsi içərisində (301-304) yer alıb.

Azərbaycan Respublikasının
Elm və Təhsil Nazirliyi

## ARTİ doktorantura və dissertanturaya sənəd qəbulu

## ELAN EDİR:

ARTİ 2023-cü il üçün fəlsəfə və elmlər doktoru proqramları üzrə dissertanturaya və doktoranturaya (əyani və qiyabi) sənəd qəbulu elan edir.

Xarici dil imtahanını müvəffəqiyyətlə vermiş şəxslərin fəlsəfə üzrə imtahanı 4, 5, 6 sentyabr, ixtisas imtahanı isə 11,12,13 sentyabr 2023-cü il tarixlərində baş tutacaq.

Əlavə olaraq bildiririk ki, doktoranturaya sənəd qəbulunun "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçirilməsi planlaşdırılır.

Doktorantura və dissertanturaya sənəd təqdim etmək istəyən şəxslər *portal.edu.az* saytı üzərindən "Ali və orta ixtisas təhsil müəssisələrinə tələbə qəbulu və qeydiyyatı" xidmətini seçərək təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər.

Qeyd edək ki, təlimat, plan yerləri, fəlsəfə və xarici dil fənnindən doktorluq imtahanının proqramı, 2022-ci ildə xarici dil fənnindən imtahan materialı üçün qeyd olunan linklərə daxil ola bilərsiniz:

Sənəd qəbulu müddəti: 12 aprel saat 12:00 -16 may saat 23:59

**Ətraflı məlumat üçün:** +99412 493- 82-71, +99412 599-08-08 daxili (6209), (6236), (6212)

**DİREKTORLUQ**




# UFAZ tələbəsinin növbəti uğuru

## Gülər İsmayılovanın tədqiqatı mükafata layiq görülüb

Azərbaycan-Fransız Universitetinin (UFAZ) "Neft və Qaz mühəndisliyi" ixtisası üzrə təhsil alan 4-cü kurs tələbəsi Gülər İsmayılova AAPG-nin illik tələbə konfransında "Qırməki pilosen məhsuldar qatı alt çökmə strukturlarının icmalı" tədqiqatı ilə birinci yer üzrə mükafata layiq görülüb.

UFAZ-dan bildirilib ki, tədqiqat Pilosen Məhsuldar Seriyasının çıxma məlumatları əsasında aparılır. Cənubi Xəzər hövzəsindəki əsas karbohidrogen anbarının (Abşeron quru və qərbi dəniz hissəsi) əsas analogiyası Balaxanı qəsəbəsinin yaxınlığında, Qırməki dərəsində yerləşir. Tədqiqat obyekti Qırməki PPS dəstidir. Tədqiqat 15 və 16 yanvar 2023-cü il tarixlərində aparılıb. Çöküntü strukturları haqqında məlumat çöküntü tərəfi və qalxma bucağı, qalınlığı və çöküntü boyunca uzunluğunun həndəsi ölçüləri silsiləsi vasitəsilə toplanır. Bu, axın rejimi, axın istiqaməti və çöküntü növü haqqında qorunan məlumatları təsvir etməyə kömək edib. Litoloji vahidlərin və ölçüsünün dəyişməsinin təsviri də aparılıb. Nəticədə, dominantlıq çöküntü xüsusiyyəti müəyyən edilmiş axın rejiminin dəyişmə dövriyyəsini əks etdirir. Bu, paleo çökmə mühitini başa düşmək üçün ipucu verir.

Qeyd edək ki, tədqiqatın müəllifi Gülər İsmayılova hazırda Fransanın Rennes 1 Universitetində təcrübə keçir və adıçəkilən konfransa onlayn şəkildə qatılıb.

# "Heydər Əliyev dayanıqlı peşə təhsilinin yaradıcısıdır"




Mayın 10-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Elm və Təhsil Nazirliyinin mətbu orqanı olan "Peşə təhsili və insan kapitalı" elmi-praktik, metodiki jurnalının redaksiyası bu münasibətlə "dəyirmi masa" təşkil edib. "Heydər Əliyev dayanıqlı Azərbaycan peşə təhsilinin yaradıcısıdır" adlı tədbirdə Təhsil İnstitutunun və Peşə Təhsili üzrə Dövlət Agentliyinin rəhbərliyi, müxtəlif universitet və peşə təhsil müəssisələrinin nümayəndələri iştirak ediblər.

Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru vəzifəsini icra edən, direktor müavini Ceyhun Kərəmov Ulu Öndərin peşə təhsilinin inkişafında oynadığı böyük rola diqqət çəkib: "Bu il peşə təhsilinin yaranmasının 180 ili tamam olur. Bu 180 illik tarixə nəzər salanda görürük ki, bu sahənin yüksəliş dövrü Heydər Əliyevin hakimiyyətdə olduğu illərə aiddir. Bu sahədə ən əlamətdar hadisələr həmin illərdə baş verib, peşə təhsilinin əhatəsi genişlənib, keyfiyyəti yüksəlib".

C.Kərəmov 1968-1982-ci illərdə peşə təhsilinin əhatə dairəsinin genişlənməsini nəzərdə tutan tədbirlərə diqqət çəkib. Onun sözlərinə görə, həmin illərdə sadəcə şəhərdə yox, hətta kəndlərdə də peşə təhsili müəssisələrinin yaradılmasına start verilib.

Peşə təhsilinin iqtisadiyyatın qabaqcıl sahələri ilə inteqrasiyası istiqamətində tədbirlərə nəzər salan C.Kərəmov deyib ki, iqtisadiyyatın ən aparıcı istiqamətlərinə xidmət edəcək peşəkar kadrların hazırlandığı, yeni ixtisaslar, yeni proqramların ən çox yarandığı dövr Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrlərdir.

Müstəqillikdən sonrakı dövrdə qəbul edilən " Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi tədbirləri haqqında" qərar da Heydər Əliyev dövrünə aiddir.

Bu strategiyanın hazırda da davam etdirildiyini vurğulayan C.Kərəmov hesab edir ki, bu addımlar Ulu Öndərin Azərbaycanda dayanıqlı peşə təhsilinin yaradılması ilə bağlı vizyonunun məntiqi davamıdır.

Daha sonra jurnalın baş redaktoru Şahbaz Balakişiyev "Heydər Əliyev dayanıqlı Azərbaycan peşə təhsilinin yaradıcısıdır" mövzusuna həsr edilmiş təqdimatla çıxış edib. O, 1843-cü ildə Şəkidə ilk peşə məktəbinin yaradılmasından bəri ötən 180 illik tarixə nəzər salıb. Peşə təhsilini inkişaf dövrlərinə görə təhlil edən baş redaktor Heydər Əliyevin hakimiyyətdə olduğu illəri peşə təhsilinin inkişafının başladığı dönəm kimi xarakterizə edib.

Tədbirdə Ulu Öndərin həyat yoluna işıq salan video-çarx maraqla qarşılanıb.

Təqdimatdan sonra tədbir iştirakçıları çıxış edərək Ulu Öndərin dəyərli irsinin həmişə xalqımız üçün gərəkli olduğunu və gələcək nəslin bu irsdən səmərəli bəhrələnəcəyindən əmin olduqlarını qeyd ediblər.

Xatırladaq ki, "Heydər Əliyev İli"nə həsr oluan tədbirin əsas məqsədi Ulu Öndərin peşə təhsilinin inkişafındakı roluna diqqət çəkmək, bu sahədə başladılan islahatları Prezident İlham Əliyevin uğurla həyata keçirməsini işıqlandırmaq olub.

**Ruhiyyə DAŞSALAHLI**

# Mən rəqs edəcəyəm



Dünyanın rəqs gününü qeyd etdiyi o gün Bakıda da səhnə rəqqasələrə verildi. Həmin gün Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsinin pərdələri onlar üçün açıldı. Bakı Xoreoqrafiya Akademiyasının (BXA) orta ixtisas təhsili pilləsi məzunları səhnənin parlaq işıqları altında öz məharətlərini göstərmək üçün buraxılış-hesabat konserti verdilər. Ənənəvi olan bu konsertlərini də rəqs gününə həsr etdilər.

## Bakı Xoreoqrafiya Akademiyasının məzunları Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tozu dumana qatdılar

### Gecəyə damğa vuran rəqslər

Buraxılış-hesabat konsertində müxtəlif rəqs kompozisiyaları nümayiş olundu. Məsələn, BXA-nın tam orta təhsil pilləsinin şagirdlərinin ifasında P. Çaykovskinin "Yevgeniy Onegin" operasından Polonez əsəri maraqla qarşılandı. Quruluşunu BXA-nın Tədris işləri üzrə prorektoru, rektor vəzifəsini müvəqqəti icra edən, Əməkdar artist Nailə Məmməd-Zadənin verdiyi rəqsi Akademiyanın məzunları Miraydın Abdullayev, Ağamir Mirzəyev, Rəşad Rəhimov, Səməd Eyvazlı, Çiçək Abbaszadə, Elvina Yusupova ifa etdilər.

Bu adlar gecə boyu dəfələrlə səslənənlərdən, sahibləri səhnədə boy - məharət göstərənlərdən oldu. Amma səhnədə, sadəcə məzunlar deyildi. I kurs tələbələri Aysun Əliyeva və İlahə Əlizadənin ifası da heç onlardan geri qalmadı. A. Qlazunovun "Raymonda" baletindən Divertisment parçasını təqdim edən qızlar səhnədə indiyə qədərki ən yaxşı işlərini sərgiləməyə çalışdılar.

### "Bu həyəcan hiss etdirdi ki, artıq məzunam"

Məzun tələbələrin, eləcə də solist Zərifə İbrahimlinin C. Cahangirovun "Lirik rəqs" əsəri Əməkdar artist Səbinə Qasımovanın quruluşunda maraqla qarşılandı.

Solist Zərifə İbrahimli, sadəcə bugünkü ifasından yox, ümumiyyətlə, səhnədə olmağından çox məmnundur. Bu il məzun olan Zərifə "Azərbaycan müəllimi"nə müsahibəsində deyib ki, özünü ən yaxşı ifadə etdiyi yer səhnə, vasitə isə rəqsdir: "VIII sinifdən BXA-da təhsil alıram. 3 ildir Akademiyanın kollecində təhsilimi davam etdirirəm. Artıq məzunam. Rəqsə iş, qazanc mənbəyi kimi baxmıram. Rəqsi sevdiyim üçün burdayam və bundan sonra böyük səhnələrdə rəqs etməyi düşünürəm. Arzum, ümidim budur".

İndiyədək çox konsertlərə qatılıb, amma məzun kimi səhnə almağın həyəcanı bir başqa olurmuş: "Hətta ötənilki buraxılış-hesabat konsertinə də qatıldım. Heç həyəcan hiss etmirdim. Amma bu gün yuxudan durandan həyəcanlıyam. Bu həyəcan hiss etdirdi ki, mən artıq məzunam".

Bu gecənin solisti təkcə Zərifə deyil. Zeynəb Hüseynzadənin P.Çaykovskinin "Qu gölü" baletindən Pa de trua BXA tələbələri və solist məzunlar-Darya Maslakova, Daniyə Nəsirova, İbrahim Cabarov, Şaiq Kərimov, Rəhman Sadıxov, Cavid Cavadzadənin ifalarında təqdim olundu.

### Tələbələrimiz üçün ən önəmli konsert

Ərkan Hüseynlinin "Acar rəqsi Qandaqan" BXA-nın məzunu Səməd Eyvazlı ilə I kurs tələbəsi Liyana Bernandinanı birləşdirdi. Onların xoreoqraf R.Çoxonelidze, müəllim, Əməkdar artist Viktoriya Şahmuradova ilə birlikdə hazırlaşdıqları bu rəqs nömrəsi maraqla qarşılandı.

O gecə Əməkdar artist, BXA-nın müəllimi Viktoriya Şahmuradovanın tələbələri həvəslə çıxış etdilər, maraqla qarşılandılar. Cəmi 3 ildir Akademiyada müəllimliyə başlasa da, o, tələbələrinin sevimlisidir. Hər dəfə adı səsləndikcə zaldan gələn səs və alqışlardan bunu anlamaq çətin deyil. O da "Azərbaycan müəllimi"nə onu sevdirən müəllimliyindən danışdı: "Bu gecə rəqslərimdə 40-a yaxın tələbəm iştirak etdi. Sadəcə bir rəqsimdə 16 qız vardı. Hər rəqsə hazırlaşmaq böyük əmək, zəhmət tələb edir. Uşaqları toplamaq, onlarla işləmək, hər birini başa salmaq asan deyil. Amma biz - həm mən, həm də tələbələrim məşqlərimizdən zövq alırıq. Çətinliyi, yorğunluğu hiss etmədən bu yolu bərabər gedirik. Özünüz də gördüyünüz kimi, əziyyətimizin sonunda tələbələrimiz layiq olduqları qiyməti alırlar".

Müəllim tələbələri üçün bu konsertin əhəmiyyətini də qeyd edib: "Bu, tələbələrimiz üçün ən önəmli konsertdir. Akademiyanı bitirib uzun bir yola çıxırlar. Bəziləri dövlət ansambllarında işləyəcək".

Ona görə də konsertə hazırlıq bir neçə ay çəkir: "Biz bu konsertə tədris ilinin əvvəllərindən hazırlaşmağa başlayırıq. Sentyabrda artıq nə quracağımızı planlaşdırır, yanvardan məşqlərimizə başlayırıq. Amma məşqlərimiz dərslərlə paralel gedir. Dərs saatları bitəndən sonra məşqlərə başlayırıq".

Bu konsert məzunlar üçün bir imtahandırsa, aşağı kurs tələbələri üçün praktikadır: "Çalışırıq ki, bu konsertdə bütün tələbələrimiz iştirak etsinlər. 2 il, 1 il sonra məzun olacaq tələbələrimiz də səhnə görməli, təcrübə toplamalıdırlar".

Rəşad Rəhimovun Ə.Bədəlbəylinin "Qız qalası" baletindən A dajio, məzun Miraydın Abdullayevin V. Solovyov-Sedoyyn "Taras Bulba" baletindən Ostapın variasiyası, məzun Tahirə Əliyevanın S.Qalperinin "Bessarab qaraçıları" da maraqlı idi. Ancaq tələbələrlə solist Zəhra Vəliyevanın ifasında "Karvan", sadəcə maraqlı deyil, əyləncəli və düşündürücü idi.

Məzunlardan başqa bir nömrə Çiçək Abbaszadə ilə Ağamir Mirzəyevin D. Şostakoviçin "Xanım və xuliqan" baletində Xuliqanın variasiyası, məzun Səməd Eyvazlının Bize J. "Karmen" operasından Don Xosenin variasiyası klassik bölmənin, Miraydın Abdullayev və solist məzun Darya Maslakovanın "Qaval ilə rəqs"i, tələbələr və solist məzunlar - Rəhman Sadıxov, Rüfət Nağıyev, Kamal Qasımov, İbrahim Cabarovun "Qafqaz rəqsi",Nemət Hüseynovun "Bayram süitası", Miraydın Abdullayev və solist məzun Darya Maslakovanın "Qaval ilə rəqs"i xalq bölməsinin təqdim etdiyi ən yaxşı rəqslərdən oldu.

Gecə uğurla davam edirdi. Bu il 30-cu buraxılış ilini qeyd edən xalq artisti Yusif Qasımovun da sevinci gözlərindən oxunur, yerə-göyə sığmadığı açıq hiss olunurdu: "1991-ci ildən, Akademiya hələ Bakı Xoreoqrafiya məktəbi olan dövrdən işləyirəm. Məni Leyla Vəkilova dəvət eləyib xalq bölməsini mənə həvalə edib. O vaxtdan burada yetişdirdiyim tələbələrin 95 faizi dövlət ansambllarının qabaqcıl rəqqaslarıdır. Yetirmələrimin arasında 16 nəfər respublikanın fəxri adlarına, 4 nəfər Prezident mükafatına layiq görülüblər".

Azərbaycan rəqslərinə sevgisindən danışan Yusif müəllim rəqslərimizin insanı coşduran xüsusiyyətlərini qeyd edib: "Ən qədim rəqslərimiz var. Məsələn, "Yallı"nın çoxlu sayda növü var. Ən qədimlərdən olan "Köçəri yallısı" çox sevdiklərimdəndir və dəfələrlə bu rəqsə quruluş vermişəm".

Yusif Qasımovun yetirməsi Kamal Qasımov da məzun olur. 14 ildir taleyini rəqslə bağlayan Kamal deyir ki, VIII sinifdən bəri 5 ildir ki, "əziyyətini Yusif müəllim çəkir". Kamal "Qaytaği" üstündə rəqs etməyi çox sevir. Xarici ölkələrin səhnələrində tozu dumana qatdığı çox olsa da, bu gün həyəcanlıdır: "Həyəcan vardı, təbii ki. Səhnədə ilk çıxışım olmasa da, bu, özümü göstərmək, bacarıqlarımı nümayiş etdirmək üçün bir şansdır. Bu şansımdan istifadə edə bilməyin həyəcanını da səhnə həyəcanına qatsaq, yəqin miqyasını müəyyənləşdirmək çətin olmaz".

Dövlət rəqs ansamblında işləmək istəyən gənc rəqqas ömrünü rəqslə bağlayacaq.

### Onlar o gecə səhnədə və həyatda uğura qapı açdılar

Gün rəqsin, meydan məzunların olsa da, səhnədə yalnız deyildilər. Özlərindən aşağı kursların tələbələri ilə rolları paylaşaraq onlardan, zalda isə Mədəniyyət və Elm və Təhsil nazirliklərinin əməkdaşlarından, ali təhsil müəssisələrinin nümayəndələrindən, mədəniyyət xadimləri və başqa qonaqlardan alqışlarla dəstək, güc alaraq qarşılarında açılacaq yeni yola yönləndilər.

Səsiniz səhnələrdən gəlsin, gənc rəqqas və rəqqasələr! Siz səhnəyə çıxanda "Lirik rəqs" də səslənə bilər, "Cəngi" də, hətta "Bessarab qaraçıları" da, lap "Raymonda" baleti, Xuliqanın variasiyası da. Orda nə ifa etməyinizdən asılı olmayaraq, əsas odur, həyatın ömrünüzə çaldığı hava ürəyinizcə olsun!

**Ruhiyyə DAŞSALAHLI**


Azərbaycan Respublikasının
Elm və Təhsil Nazirliyi

## Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

aşağıda adları çəkilən kafedralarda vakant vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR:

| № | Kafedra | Vəzifə | Yer |
|---|---|---|---|
| 1 | Kino və televiziya sənətləri kafedrası | Kafedra müdiri | 1 |

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəh., AZ 1065, İnşaatçılar 39
**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**

# BDU tələbəsi dünya çempionu oldu




Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin para-pauerliftinq idman növü üzrə milli komandasının üzvü Talıb Zeynalov Gürcüstanın Tbilisi şəhərində keçirilən Dünya kubokunda +107 kq çəki dərəcəsinin "gənc idmançılar" kateqoriyasında 146 kq nəticə göstərərək fərdi çəkidə qızıl medal qazanıb. Bu nəticə ilə idmançımız ümumi çəkidə də daha bir qızıl medalın sahibi olub.

T.Zeynalov böyüklər arasında 146 kq ilə yarışı 5-ci pillədə tamamlayıb.

Qeyd edək ki, T.Zeynalov Bakı Dövlət Universitetinin (BDU) tarix fakültəsinin II kurs tələbəsidir.



# MDU komandası voleybol üzrə şəhər çempionatının qalibidir

Mingəçevir Dövlət Universiteti (MDU) və Mingəçevir şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə voleybol üzrə qızlar arasında şəhər çempionatı keçirilib. "Heydər Əliyev İli" çərçivəsində keçirilən idman yarışı şəhərdə idmanın təbliği və kütləviləşdirilməsi, gənclərin asudə vaxtlarının səmərəli təşkili və sağlam həyat tərzinin təmin edilməsi işinə töhfə məqsədi daşıyıb.

Çempionatda MDU, Mingəçevir Turizm Kolleci, Mingəçevir şəhər Uşaq-Gənclər İdman Şahmat Məktəbi, Mingəçevir Peşə Məktəbi və 13 nömrəli tam orta məktəbin tələbə və şagird qızlardan ibarət komandaları mübarizə aparıb. MDU-nu təmsil edən voleybol komandası yarışın qalibi olub.

Qalib komanda üzvləri kubok və diplomlarla mükafatlandırılıb.

## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4259 **Sifariş** 1128

**Məsul növbətçi:** S.Kərimova

# Etibarsız sayılır

**Masallı rayon** Tüklə kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Məmmədov Hicran Fəxrəddin oğluna verilmiş A-743632 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1982-ci ildə Baxışova İradə Əlövsət qızına verilmiş ИВ-026252 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 1 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Rəcəbova Elnarə Həsrət qızına verilmiş AO-1722 nömrəli tam orta təhsil haqqında arayış itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Günəşli kənd 2 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Həziyev Fərid Rafiq oğluna verilmiş B-316199 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2011-ci ildə Qarayeva Lalə Abdi qızına verilmiş B-223639 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Texniki Kolleci** tərəfindən 2009-cu ildə Hacıyeva Vüsalə Niyazi qızına verilmiş BB-II-101482 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kolleci** tərəfindən 2022-ci ildə Xaspoladov Xətai Elçin oğluna verilmiş AA-171644 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Hərbi Liseyi** 2005-ci ildə bitirmiş Əliyev Elsevər Vasif oğluna verilmiş A-748090 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 15 nömrəli tam orta məktəbi (indiki BSU-nun nəzdində məktəb-lisey kompleks) 2009-cu ildə bitirmiş Qafarlı Ayla İlqar qızına verilmiş B-586885 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 7 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Səbzəliyev Rəşad Sehran oğluna verilmiş B-296815 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəngərli rayon** Qıvraq qəsəbə tam orta məktəbi 2017-ci ildə bitirmiş Camalova Səriyyə İlqar qızına verilmiş E-037934 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Təhsil Nazirliyi** tərəfindən 2017-ci ildə Quliyeva (Qarayeva) Səidə Mehman qızına verilmiş 013379 nömrəli diplomu təsdiq edən şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Aqrar Universiteti** tərəfindən 2001-ci ildə Əliyev Ramil Bəydəmir oğluna verilmiş A-050462 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdam Musiqi Kolleci** tərəfindən 2017-ci ildə Zülfəliyeva Rəmalə Niyazi qızına verilmiş AA-090033 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 44 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Əliyeva Elnarə Arif qızına verilmiş A-472072 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2017-ci ildə bitirmiş Məmmədova Gülbahar Əlövsət qızına verilmiş A-116908 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Sürücülük Məktəbi** tərəfindən 2013-cü ildə Babayev Reyhun Səyyad oğluna verilmiş 007846 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Qaratorpaq kənd 112 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Həmidov Taleh Böyükağa oğluna verilmiş 042100 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qax şəhər** 2 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Həsilova Arzu Elşad qızına verilmiş A-174419 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 1997-ci ildə Sultanova Kəmalə Sabir qızına verilmiş A-003190 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Mahmudova (Cahangirova) Gülnar Nadir qızına verilmiş E-710789 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 37 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Əsgərli Bəhruz Nizaməddin oğluna verilmiş E-196984 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şahbuz rayon** Şahbuzkənd kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Quliyeva Pərvanə Əvəz qızına verilmiş A-049766 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş İbadov Həsrət Zahid oğluna verilmiş B-117641 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Təhsil Nazirliyi** tərəfindən 2021-ci ildə Bəhrəmov Ramiz Vəli oğluna verilmiş ƏV-008904 nömrəli əmək veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Hülövlü kənd tam orta məktəbi 1988-ci ildə bitirmiş Orucəliyev Murad Gülbudaq oğluna verilmiş AK-451712 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Atakişili kənd tam orta məktəbi 2021-ci ildə bitirmiş Hüseynov Rəşid Mübariz oğluna verilmiş E-401186 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2006-cı ildə Əlirzayev Tofiq Vaqif oğluna verilmiş B-069547 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 29 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Əlirzayev Tofiq Vaqif oğluna verilmiş A-515079 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası** tərəfindən 2017-ci ildə Səfərli Ağasoy Hökümə Aslan qızına verilmiş FD-10741 nömrəli fəlsəfə doktoru diplomu itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 9 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş İbrahimova Ülviyyə İtifat qızına verilmiş A-832812 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər Təbiət, Riyaziyyat və Humanitar Elmlər Təmayüllü Liseyi** 2011-ci ildə bitirmiş Heydərli Aygül Hikmət qızına verilmiş A-029422 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 1 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş İsmayılov Mikayıl Nəriman oğluna verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 102 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Qasımov Orxan Mehdi oğluna verilmiş A-102978 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 129 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Yusifova Xanım Baba qızına verilmiş 000368 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2002-ci ildə Mirzəyeva Aytəkin Elşad qızına verilmiş A-074117 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Xocavənd rayon** Salakətin kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş Gəraylı Pərviz Elmidar oğluna verilmiş A-159556 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İlyas Əfəndiyev adına Elitar Gimnaziyanı** 2005-ci ildə bitirmiş Alıyeva (Xaşalova) Gültəkin Mədət qızına verilmiş B-101010 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 18 nömrəli köçkün tam orta məktəbi 2015-ci ildə bitirmiş İsmayılov Aftandil Mehman oğluna verilmiş A-450971 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**4 nömrəli Sumqayıt Peşə Liseyi** (indiki Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 2001-ci ildə Nəsirov Mais Hacıəli oğluna verilmiş AB-052765 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı 2 nömrəli Baza Tibb Məktəbi** tərəfindən 2000-ci ildə Mirzəliyeva Arzu Aslan qızına verilmiş AB-II-079087 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Ələsgərli kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Quliyeva Aygün Tahir qızına verilmiş B-293166 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər şəhər** 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Tağıyeva (Nəcəfova) Aygün Mayıl qızına verilmiş B-292854 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2010-cu ildə Seyidov Xəqani Ağamusa oğluna verilmiş B-192787 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Təklə kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Kazımova Aytən Qulaməli qızına verilmiş A-104603 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Şiştəpə kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş Hacıyev İlkin Xanoğlan oğluna verilmiş A-486325 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** S.Vurgun adına Təzəkənd tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Məmmədov Ərəstun Şubay oğluna verilmiş 197067 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Plankənd 2 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Mehdiyeva Vəfa Ramiz qızına verilmiş A-031547 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Dəllər Cəyir kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Qasımzadə Anar İlqar oğluna verilmiş B-413941 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Dəllər Cəyir kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Hümbətova Samirə Ramiz qızına verilmiş A-434623 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 141 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Mehdiyeva Maisə Ağaqulu qızına verilmiş A-222725 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 2 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Cabbarlı Elmin Əlzamin oğluna verilmiş E-338613 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 278 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Qaybalızadə Loğman Namiq oğluna verilmiş E-138783 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Soyuqbulaq kənd tam orta məktəbi 1991-ci ildə bitirmiş Əmirova (Mirzəyeva) Nigar Rəc qızına verilmiş A-197505 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Şirinbəy kənd tam orta məktəbi 1981-ci ildə bitirmiş Əliyeva Sevda Hüseyn qızına verilmiş A-497990 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 12 nömrəli köçkün tam orta məktəbi 2005-ci ildə bitirmiş Hacıyeva Yaqut Koroğlu qızına verilmiş A-160915 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2005-ci ildə Əhmədova Esmira Ramidinovnaya verilmiş BB-II-025657 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2020-ci ildə Əkbərov Fərid Saday oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 81 nömrəli tam orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Babayeva Rahimə Səlvər qızına verilmiş A-272519 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı 2 nömrəli Baza Tibb Kolleci** tərəfindən 2012-ci ildə Eyvazlı Ayşən Nadir qızına verilmiş AA-011736 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2005-ci ildə Tağıyeva Günay Pənah qızına verilmiş B-037905 nömrəli bakalavr diplomu və diploma əlavə, 2008-ci ildə verilmiş MNB-015999 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Şıxmahmud kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Bayramova Fatma Səfiyar qızına verilmiş A-057770 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Uzunoba kənd tam orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Dəmirov Camov Teyyub oğluna verilmiş A-248566 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2017-ci ildə Əliyev Asim Rasim oğluna verilmiş A-121265 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** N.Vəliyev adına 5 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Hüseynova (Nazarova) Sevil Etibar qızına verilmiş B-325976 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Rəsullu kənd tam orta məktəbi 1996-cı ildə bitirmiş Şükürova Şəmsiyyə Fərhad qızına verilmiş A-639270 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 136 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Əliyev İsrail İsmayıl oğluna verilmiş E-266840 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Quruzma kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Hüseynli Ramil Rafət oğluna verilmiş A-433139 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 38 nömrəli tam orta məktəbi 1983-cü ildə bitirmiş Qurbanov Seyran Mürvət oğluna verilmiş 817838 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 310 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Hüseynov Anar Sahib oğluna verilmiş A-100420 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 258 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Novruzov Abgül Fərman oğluna verilmiş B-675510 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası** tərəfindən 2022-ci ildə Məcidova Aytən Talıb qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Tapqaraqoyunlu kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Vəliyev Ruslan Vilayət oğluna verilmiş A-623871 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur şəhər** 2 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Hüseynova (İsmayılova) Esmira Vahid qızına verilmiş A-120202 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Elm və Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin əməkdaşı Billurə Hacızadəyə əzizi

**ELŞƏNİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan müəllimi" qəzetinin kollektivi Elm və Təhsil Nazirliyinin əməkdaşı Billurə Hacızadəyə əzizi

**ELŞƏNİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mərkəzi Aran Regional Təhsil İdarəsinin rəhbərliyi və kollektivi Elm və Təhsil Nazirliyinin əməkdaşı Billurə Hacızadəyə əzizi, Ağdaş rayonu Ləki qəsəbə 6 nömrəli tam orta məktəbin müəllimi Tünzalə Cavadovaya oğlu

**ELŞƏNİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Oruc Mustafayev Nizaməddin Babanlıya atası

**BABA MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

ADNSU-nun nəzdində Bakı Neft-Energetika Kollecinin kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru professor Mustafa Babanlıya atası

**BABA MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

ADPU-nun nəzdində ADPK-nın Təbiət elmləri fənn birləşmələri komissiyasının kollektivi komissiyanın sədri Svetlana Əhmədovaya dayısı

**BABA MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Uşaqlarda ünsiyyət

## Valideyn və müəllimlər uşaqlarda dinləmə, danışma, oxu və yazma bacarıqlarının formalaşmasına diqqət etməlidirlər

Ünsiyyət uşaqların ən vacib tələbatlarından biridir. Lap körpəlikdən başlayaraq hər bir yaş dövrünün özünəməxsus ünsiyyət tələbatı olur. Qeyd etmək vacibdir ki, uşaqlarda ünsiyyət tələbatı ilk öncə ailədə qarşılanmalıdır. Onlar valideynləri ilə ünsiyyət zamanı yeni məlumatlar əldə edir, hər hansı problemlərinin həllində yardım ala bilirlər. Bu ünsiyyət uşaqlara inam hissi qazandırır və yeniliklər öyrənməsinə yol açır. Valideynlərin övladları ilə ünsiyyəti, bu ünsiyyətin düzgün qurulması uşaqların sonrakı inkişafı üçün önəmlidir.

Bildiyimiz kimi, ünsiyyət nitq vasitəsilə baş verir. Ünsiyyət zamanı dörd nitq bacarığından istifadə olunur: dinləmə, danışma, oxu, yazı. Bu bacarıqların uşaqlarda inkişafına xüsusi diqqət etmək lazımdır.

"Məktəblinin dostu" layihəsinin Psixoloji Mərkəzinin psixoloqu Nərmin Abbasova "Azərbaycan müəllimi" qəzetinə uşaqlarda ünsiyyətin inkişaf mərhələlərindən danışarkən belə deyib: "Nitq insana məxsus olan ali psixi funksiyadır. Uşaqlar nitq vasitəsilə gördüyü əşyaları, rəsmləri, hadisələri təsvir etməyi bacarmalıdır. Əgər uşaq bunu bacarırsa, demək ki, onda məntiqi təfəkkür inkişaf edir. Daha dəqiq desək, bu mexaniki təkrarlama deyil, onun nitqinin formalaşmasının göstəricisidir. Uşaqlar qısa nağılları, hekayələri diqqətlə dinləmə, hadisələrin inkişafını izləmə, sənət və musiqi əsərlərinə emosional reaksiya verə bilməyi bacarmalıdır".

Uşaqlarda nitq inkişafını sürətləndirmək üçün ailələr tez-tez onlarla söhbətlər etməli, yaşına uyğun oyunlar oynamalı, hekayələr danışmalı və onların sosial mühitdə olmasını təmin etməyə çalışmalıdırlar. Ətraf mühit haqqında təsəvvürlərin zənginləşməsi uşaq nitqinin inkişafı ilə sıx bağlıdır. Belə ki, uşağın ətrafdakı əşya və hadisələr haqqında bilik dairəsi nə qədər geniş olarsa, nitqi də bir o qədər zəngin olar. Bir uşağın düşüncəsini uyğun bir formada ifadə edə bilməsi üçün ona müşahidə etməyi, təəssüratlarını bölüşməyi və səbəb-nəticə əlaqələrini anlamağı öyrətmək lazımdır. "Nə düşünürsən?", "Niyə?", "Necə?" bu kimi suallar onların düşüncəsində vacib rol oynayır. Eləcə də söz ehtiyatlarını genişləndirərək adi mühakimələri ifadə etmək bacarığına diqqət etmək vacibdir.

Psixoloq N.Abbasova qeyd edir ki, uşaqlarda sosiallaşma mərhələsi xüsusi yer tutur. Bu mərhələdə yaxşı olardı ki, uşaqlar həmyaşıdları ilə eyni mühitə düşsünlər və həmin dövrün aparıcı fəaliyyəti- süjet rollu oyunlarla birgə məşğul olsunlar. Ünsiyyət bacarıqlarının formalaşmasında birgə fəaliyyət çox önəmlidir. Ünsiyyət zamanı şifahi nitq bacarıqlarının inkişafı yazılı nitq bacarıqları üçün bir növ təməl rolu oynamış olur. Belə ki, oxu və yazı mərhələsi uşaq nitqində xüsusi yer tutur.

Təhlillər göstərir ki, uşaqlara oxu bacarığını aşılamadan öncə kitabın onlar üçün nə dərəcədə əhəmiyyətli olduğunu, oxumağın faydalı bir fəaliyyət kimi vacibliyini və dəyərini vurğulamaq lazımdır. Bu zaman müsbət yanaşma formalaşdırdıqdan sonra oxumaq onların ən sevimli fəaliyyətlərindən birinə çevriləcək. Bir uşağın kitablara olan sevgisi, öyrənməkdən və oxumaqdan həzz alma bacarığı ona hər gün tərbiyə edilməlidir. Erkən yaşlardan etibarən ailə mühitində uşaqda kitablara qarşı müsbət münasibət inkişaf etdirilməli və uşaq böyüdükcə bunun onun üçün zövq alacağı, həmçinin yeni bilik və bacarıqlar əldə edəcəyi aktiv bir proses olduğuna inandırılmalıdır.

Uşaqlarda yazma bacarığının formalaşması üçün erkən yaşlardan onlarda kiçik motorikanı inkişaf etdirməyə ehtiyac duyulur. Tutmaq, yazmaq, cızma-qara etmək, çəkmək, yapışdırmaq, kəsmək kiçik motorik bacarıqlardır. Kiçik motorika uşaqların inkişafında və öyrənməsində əvəzolunmaz rola malikdir. Belə ki, bu zaman əl-göz koordinasiyası, kiçik əzələlər, barmaq əzələləri inkişaf edir. Məntiqi düşünmə qabiliyyətləri inkişaf etmiş uşaqlar kiçik motorikanın inkişaf səviyyəsi yüksək olan zaman yaddaş, diqqət və düzgün nitqə malik olurlar.

Psixoloq N.Abbasova yazılı nitq bacarıqlarından danışarkən qeyd edir: "Adətən deyirlər ki, uşaqda yazılı nitq üçün mexaniki qələm tutmaq qabiliyyəti olmalı və danışmağı bacarmalıdır. Amma bu yetərsizdir. İlk olaraq uşaq qələm tutmağı öyrənir, qələm vasitəsi ilə cızma-qaralar etməyə başlayır. Uşaqlar oxuduğu mətnləri və ya eşitdiyi hadisələri müəyyən işarələrlə yazmağa çalışırlar. Bu, onların yazılı nitqi üçün ilkin mərhələ hesab olunur. Artıq uşaqlar yazmağın mahiyyətini anladıqdan sonra hərf və rəqəmləri, daha sonra isə sözləri yazmağa başlayırlar. Ancaq yenə də çalışmaq lazımdır ki, uşaqlar bunu mexaniki əzbərləmə ilə deyil, dərketmə vasitəsilə bacarsınlar".

Beyin fiziologiyasının və uşaq psixologiyasının tədqiqatları göstərir ki, uşağın əqli bacarıqlarının inkişafının açarı - ömrünün ilk üç ilində, yəni beyin hüceyrələrinin inkişafı dövründə formalaşır. Belə ki, uşaq anadan olandan üç yaşınadək beyin hüceyrələrinin bir-biri ilə əlaqəyə keçdiyi ən fəal dövrdür. Bu zaman, beyin hüceyrələri, belə demək olarsa, əl-ələ verib uşağın hiss orqanları ilə xaricdən qəbul etdiyi informasiyaya cavab verməyə çalışır. Məsələn, üç yaşına qədər uşaqlar əlifba ilə tanış olmasalar da, onlara maraqlı bir hekayə oxuduqda, onlar özləri kitabın səhifələrini vərəqləyir və müəyyən sözləri kitabdakı şəkillərlə uyğunlaşdırırlar.

Beləliklə, ünsiyyətin uşaq nitqində, inkişafında vacib bir rol oynadığını nəzərə alaraq valideyn və pedaqoqlar onlarda dinləmə, danışma, oxu və yazma bacarıqlarının formalaşmasına diqqət etməlidirlər. Nitqdə hər hansı bir nöqsan nəzərə çarparsa, həkim, loqopedik və psixoloji müayinədən keçirmələri tövsiyə olunur.



Ekspertlər deyir ki, körpə yaşlarından dinləyici olan uşaqların nitqində laylalar, oxşamalar, nağıllar xüsusi yer tutur. Bu kimi söhbətlər onların nitqində təməl rolunu oynamış olur. Uşaqlarda nitq 1,5 yaşlarından formalaşmağa başlayır. Artıq bu yaşlardan uşaqların söz bazalarında 10 və daha çox sayda sözlər olmalıdır. 2 yaşlarında 2 sadə sözdən ibarət cümlələr qurmağa, 3 yaşlarında isə 2 və daha çox sözdən ibarət cümlələr quraraq fikir və düşüncələrini formalaşdırmağa başlayırlar. Bunun üçün valideynlər yaş xüsusiyyətlərini nəzərə alaraq, mütəmadi onlarla məşğul olmalı, komandalar verməli, göz təması qurmalı, suallar verərək cavab almalarını təmin etməlidirlər. Hər bir uşaq individualdır, yəni bu sadalananlar həmin yaş dövrləri üçün şərt deyildir. İrəliləmələr, gecikmələr də olur.

**Nəzrin SEYİDƏLİYEVA**

Körpə yaşlarından dinləyici olan uşaqların nitqində laylalar, oxşamalar, nağıllar xüsusi yer tutur. Bu kimi söhbətlər onların nitqində təməl rolunu oynamış olur.

Uşaqlarda nitq 1,5 yaşlarından formalaşmağa başlayır. Artıq bu yaşlardan uşaqların söz bazalarında 10 və daha çox sayda sözlər olmalıdır. 2 yaşlarında 2 sadə sözdən ibarət cümlələr qurmağa, 3 yaşlarında isə 2 və daha çox sözdən ibarət cümlələr quraraq fikir və düşüncələrini formalaşdırmağa başlayırlar.

Ətraf mühit haqqında təsəvvürlərin zənginləşməsi uşaq nitqinin inkişafı ilə sıx bağlıdır. Belə ki, uşağın ətrafdakı əşya və hadisələr haqqında bilik dairəsi nə qədər geniş olarsa, nitqi də bir o qədər zəngin olar.

Ünsiyyət bacarıqlarının formalaşmasında birgə fəaliyyət çox önəmlidir. Ünsiyyət zamanı şifahi nitq bacarıqlarının inkişafı yazılı nitq bacarıqları üçün bir növ təməl rolu oynamış olur.

Erkən yaşlardan etibarən ailə mühitində uşaqda kitablara qarşı müsbət münasibət inkişaf etdirilməli və uşaq böyüdükcə bunun onun üçün zövq alacağı, həmçinin yeni bilik və bacarıqlar əldə edəcəyi aktiv bir proses olduğuna inandırılmalıdır.

Uşağın əqli bacarıqlarının inkişafının açarı - ömrünün ilk üç ilində, yəni beyin hüceyrələrinin inkişafı dövründə formalaşır.

# Uşaq orqanizminin sağlamlığının qorunması



## Sağlam bir gələcək üçün ən xeyirlisini seçirik

Uşaqların məktəblərdə və məktəbəqədər müəssisələrdə, eləcə də ev mühitində də oturaq həyat tərzi keçirmələri onların sağlamlığına müəyyən mənfi təsirlər göstərir. Bu səbəbdən uşaqlar arasında qamət, kifayət qədər görmə problemləri müşahidə olunmaqdadır. Qeyd edək ki, qamət və görmə pozuntusu məktəb xəstəlikləri adı ilə XIX əsrdə tibbi ədəbiyyata daxil olub.

Qəbul olunmuş qərara əsasən hazırda məktəblərin isti yeməklərlə təminatı mərkəzləşdirilmiş şəkildə həyata keçirilir. Bir sıra məktəblərə uşaqlar üçün isti yeməklər gətirilir. Bəzilərində şərait varsa bütün gigiyenik normaları gözləmək şərti ilə isti yeməklərin hazırlanmasına icazə verilir. Satışına icazə verilməyən ərzaqlara isə artıq bufetlərdə rast gəlmirik.

Məlumdur ki, uşaqlar günün 5-6 saatını məktəblərdə keçirir. Bu müddət ərzində uşaqların isti olmayan, quru ərzaqlarla, şirniyyatlarla qidalanması onların orqanizminə mənfi təsirlər göstərir. Bu səbəbdən uşaqların məktəb mühitində isti yeməklə təmin olunması ən yaxşı üsuldur.

Dərsin yaxşı mənimsənilməsi, qavranılmasında uşaqların qidalanması xüsusi yer tutur. Buna görə də mütləqdir ki, onların qidalanmasında ərzaq və qidalar təzə, keyfiyyətli və vitaminlə zəngin olsun.

Uşaqlar arasında görmə problemləri, qamət pozuntuları ilə yanaşı onlar arasında ürək çatışmazlığı, qanazlığı kimi xəstəliklərə də rast gəlinir. Şagird və tələbələr müəyyən informasiyaları çox vaxt internet vasitəsi ilə əldə edirlər. Bunun da müəyyən mənfi təsirləri vardır. Belə ki, bu, onlarda gec yuxuya getmə probleminə gətirib çıxarır. Həddindən artıq yüklənmə, stress, yorğunluq, yuxusuzluq, iştahsızlıq da məktəblilər arasında müşahidə olunmaqdadır. Stresin təsirindən immunitetın zəifləməsi qaçılmaz haldır. Qeyd edək ki, bunlarla yanaşı genetik və ekoloji faktorlar da uşaqların sağlamlığına müəyyən təsir göstərir.

Məktəbli uşaqlarda intensiv inkişaf zamanı orqanizmin formalaşması baş verdiyindən onlara daha diqqətli yanaşma olmalıdır. Uşaqları sağlam həyat tərzi mövzusunda maarifləndirərək onlara gün ərzində təmiz sudan istifadənin faydalarını aşılamaq lazımdır. Məktəblilər asudə vaxtlarını düzgün təşkil etmək üçün idmanla məşğul olmaq, müəyyən dərnəklərə cəlb olunmaq kimi fəaliyyətlərə istiqamətləndirilməlidirlər. Onlarla maarifləndirici görüşlər uşaqların zərərli vərdişlərdən kənar, eləcə də kimyəvi maddələrdən uzaq olmağında mühüm rol oynayır.

Müasir pedaqogikanın əsasını təkcə fərdin maksimal yaradıcı, idrak imkanlarının inkişafı yox, həmçinin fiziki və mənəvi sağlam vətəndaş nəsli tərbiyə etmək təşkil edir. Buna görə də sağlam bir gələcək, güclü bir nəsil üçün ən xeyirlisini seçirik.

**Nigar QAFAROVA,**
*ADPU nəzdində ADPK Təbiət elmləri fənn birləşməsinin biologiya müəllimi*

